# AZƏRBAYCAN VƏKİLİ

## AZERBAIJANI LAWYER

- XVIII say - Issue no: 18 -

*“Azərbaycan vəkili” jurnalının bu - XVIII nömrəsi Azərbaycan vəkilliyinin 100 illiyi, müstəqil vəkillik institutunun yaradılmasının 20 illiyi və Azərbaycan Respublikası Vəkillər Kollegiyasının təsis olunmasının 15 illiyi münasibətilə Ana dilimizdə və İngilis dilində nəşr olunmuşdur.*

*This 18th issue of “Azerbaijani Lawyer” Journal published in Azerbaijani and English languages has been dedicated to the 100th year of foundation of Azerbaijani advocacy, the 20th year of institution of independent advocacy profession and the 15th year of the establishment of Azerbaijani Bar Association.*

**Azərbaycan Respublikasının**
**Vəkillər Kollegiyası**

*"Azərbaycan vəkili" jurnalının buraxılmasında məqsəd vəkil peşəsinin hüquqşünaslar arasında təbliği ilə onun nüfuzunun artırılması, həmçinin gələcəkdə vəkillik sahəsində mövcud olan aktual problemlərin tədqiqi ilə Vəkillik hüququ elminin inkişafına töhfə verilməkdən ibarətdir.*
*Jurnal, Vəkillər Kollegiyasının üzvləri, həmçinin digər hüquqşünaslar arasında pulsuz paylanılmaq üçün nəzərdə tutulmuşdur.*

**Redaksiya heyəti:**

**Baş redaktor:** ***Anar Bağırov*** – Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri, Məhkəmə-Hüquq Şurasının üzvü, hüquq üzrə fəlsəfə doktoru

**Məsləhətçi:** ***Fariz Məmmədov -*** Vəkillər Kollegiyasının Rəyasət Heyətinin üzvü, hüquq üzrə fəlsəfə doktoru

**Buraxılışa məsul şəxs:** ***Fərhad Nəcəfov*** – Vəkillər Kollegiyasının Rəyasət Heyətinin Aparatının rəhbəri, hüquq üzrə magistr

*"Azərbaycan vəkili" jurnalı Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Mətbu nəşrlərin reyestrində 3708 nömrəsi ilə qeydiyyata alınmışdır.*

**Redaksiyanın əlaqə məlumatları:**
Bakı şəhəri, C.Hacıbəyli küçəsi 100,
Tel/Faks: +994 12 594 08 70
e-mail: office@barassociation.az
veb-səhifə: http://www.barassociation.az/

**© Azərbaycan Respublikasının Vəkillər Kollegiyası, 2019**

# “Azərbaycan Vəkili”
# JURNALI

Jurnal pulsuz paylanılır.

**Azərbaycan Respublikasının**
**Vəkillər Kollegiyası**

Bakı şəhəri, C.Hacıbəyli küçəsi 100,
Tel/Faks: +994 12 594 08 70
e-mail: office@barassociation.az
veb-səhifə: http://www.barassociation.az/

# MÜNDƏRİCAT


**Müsahibələr və mövqelər**

**2** *“Müstəqil dövlətin güclü və nüfuzlu hüquqi müdafiə təsisatı”*
**Vəkillər Kollegiyasının sədri Anar Bağırov**

**6** *“Azərbaycan Vəkilliyi - 100 il”*
**vəkil Akif Əlizadə**

**Yerli və beynəlxalq mətbuat səhifələrindən**

**14** Məhkəmə-hüquq islahatlarının yerni mərhələsi

**18** Azərbaycan Prezidentinin Fərmanı məhkəmə hakimiyyətinə ictimai etimadın artmasına xidmət edir

**26** Çin Hüquq Cəmiyyətinin nümayəndələri Vəkillər Kollegiyasında olmuşlar

**26** Vəkillər Kollegiyasının sədri 2019 Peterburq Beynəlxalq Hüquq Forumunda iştirak etmişdir

**27** Sumqayıtda Vəkillər Kollegiyasının ilk regional vəkil qurumunun açılışı olmuşdur

**29** Vəkillərimiz artıq Birləşmiş Krallığın yurisdiksiyasında vəkilliyə qəbul oluna biləcəklər

**30** “Məhkəmə-hüquq islahatlarına vəkil baxışı” mövzusunda konfrans keçirilmişdir

**31** Masallı “ASAN”da fəaliyyət göstərən hüquqi yardım mərkəzi ilə tanış olunmuşdur

**32** Vəkillər arasında şahmat turnirinə yekun Vurulmuşdur

**32** Azərbaycan Milli Elmlər Akademiyasında vəkilliyə namizədlərin təntənəli andiçmə mərasimi keçirilmişdir

**33** Vəkillər Kollegiyasının rəhbərliyi beynəlxalq konfransda iştirak etmişdir

**34** Vəkillər Kollegiyası ilə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi arasında Anlaşma memorandumu imzalanmışdır

**35** Vəkillər Kollegiyasının rəhbərliyi Polşada beynəlxalq konfransda iştirak etmişdir

**36** İnsan Hüquqları üzrə Avropa Komissarı Vəkillər Kollegiyasını ziyarət etmişdir

**37**ABŞ-ın Azərbaycandakı səfiri Vəkillər Kollegiyasını ziyarət etmişdir

**38** Azərbaycan vəkilliyinin 100 illiyində sosial aksiya keçirilmişdir

**“Asudə” rubrikası**

**39** Vəkil Nazlı Əhmədova və onun hüquqşünaslardan ibarət komandası tərəfindən hazırlanmış “Hüquqi açıqca”lar

## Müsahibələr və mövqelər



**Anar Bağırov**

***Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri***

### MÜSTƏQİL DÖVLƏTİN GÜCLÜ VƏ NÜFUZLU HÜQUQİ MÜDAFİƏ TƏSİSATI

*"Güclü və nüfuzlu vəkillik təsisatının böyük əhəmiyyəti vardır"*
*İlham ƏLİYEV*

Respublikamızda insan hüquqlarının peşəkar müdafiəsi işinin təşkili baxımından 2019-cu il Azərbaycan vəkilliyi üçün xüsusilə əlamətdardır. Əminliklə demək olar ki, bu il Azərbaycan vəkilliyinin 100 illiyi, müstəqil vəkillik institutunun yaradılmasının 20 illiyi və Azərbaycan Respublikası Vəkillər Kollegiyasının təsis olunmasının 15 illiyi kimi tarixə düşəcəkdir.

Bu gün Ana qanunumuz olan Konstitusiyada 24 yerdə "insan hüquqları", 63 yerdə "azaqlıqlar" və sair əlaqəli ifadələrə rast gəlirik. Bu, dövlət və vətəndaş cəmiyyəti quruculuğu barədə ölkəmizin hansı istiqamət tutması, hansı bəşəri dəyərlərə söykənməsi, onun niyyəti barədə xəbər verir. Eyni zamanda bu hüquqların peşəkar qorunması işində mərkəzi yerlərdən birini tutan Azərbaycan vəkilliyinin özünə xas tarixi yolu olmuşdur.

Dünyaca məşhur yazıçı Harper Linin "Bülbülü öldürmək" romanında əsərin qəhrəmanın dilindən peşəcə vəkil olan atası Attikus Finç barəsində belə bir ifadə işlədilir: "Heç vaxt əlinə silah almamış, hətta müharibədə olmamış atam mənim gözümdə bəlkə də dünyada yaşamış ən cəsur adam idi". Yəqin, vəkil peşəsinin xarakterini bədii formada bundan daha gözəl ifadə etmək olmazdı. Dünya tarixinə nəzər yetirdikdə vəkillərin, ümumən hüquqşünasların müxtəlif dövlətlərin qurulmasında rolunu bariz şəkildə görə bilərik. Belə fədakarlıq yanlız cəsarətli şəxslərə xasdır və vəkillər bu tarixi siyahıda öncül yerlərdən birini tutmaqda haqlıdırlar. Buna bir sıra xarici ölkələrin, həm də Azərbaycanın şanlı tarixi uğurlu misal ola bilər.

Belə ki, ölkəmizdə institusional səviyyədə vəkillik 30 iyul 1919-cu il tarixdə Azərbaycan Xalq Cümhuriyyətinin Ədliyyə Nazirliyinin qərarı ilə Azərbaycan Məhkəmə Palatası Dairəsi üzrə Andlı Müvəkkillər Şurasının təşkili işinə başlanılmışdır.

12 noyabr 1919-cu il tarixdə Azərbaycan Xalq Cümhuriyyətinin Ədliyyə Nazirliyinin müraciəti əsasında vəkillərin dəqiqləşdirilmiş siyahısının təqdim edilməsi xahiş edilmişdir. Qeyd olunmalıdır ki, həmin dövrdə fəaliyyət göstərən 100-dən artıq vəkildən yalnız 8-i azərbaycanlı olub. Onlardan İsmayıl xan Ziyadxanov, Axundzadə Rəşid bəy, Əlimərdan Topçubaşov, Fətəlixan Xoyski, Xəlilbəy Xasməmmədovun adları xüsusilə qeyd olunmalıdır. Adları sadalanan ictimai-siyasi xadimlərin ovaxtkı Azərbaycan dövlətinin qurulmasındakı sonrakı xidmətləri hər kəsə gözəl məlumdur.

Lakin Azərbaycan Xalq Cümhuriyyətinin 1920-ci ildə 11-ci qızıl ordu tərəfindən ilhaq olunması nəticəsində Azərbaycan İnqilab Komitəsinin 13 may 1920-ci il tarixli dekreti ilə Azərbaycan məhkəmə palatası, ümumən prokurorluq, məhkəmə və istintaq orqanları, habelə vəkillik sistemi ləğv edildi. Məlumat üçün qeyd olunmalıdır ki, həmin dövrdə müdafiəçilər işlərə yalnız məhkəmə baxışı mərhələsində buraxılırdılar ki, bu, o dövrdə insanların hüquqi yardıma çatımlılığı baxımından qəbahətli təcrübə kimi acı da olsa, bunu tariximiz kimi qəbul etməliyik.

Sovet hakimiyyəti illərində Moskvadakı ittifaq rəhbərliyinin Azərbaycana münasibətdə iqtisadi və digər sahələrdə ayrı-seçkiliyə meyilli olmasına baxmayaraq, xalqımızın qədirbilən övladları ölkəmizin tərəqqisi naminə öz sözlərini deyə bildi. Bu mənada, xalqımızın dahi lideri, Ulu Öndər Heydər Əliyevin xidmətləri xüsusilə vurğulanmalıdır.

1970-ci ildə Azərbaycan SSR Ədliyyə Nazirliyi yaradılmış və maraqlıdır ki, nazirliyin Əsasnaməsinin 6-cı maddəsində nazirliyin vəkillər sisteminə ümumi rəhbərlik etməsi qeyd olunmuşdur. Həmin ilin dekrabın 25-də isə SSRİ Ədliyyə Nazirliyinin "Vəkillər Kollegiyasının fəaliyyətinə rəhbərliyi yaxşılaşdırmaq haqqında" əmrdə aşağıdakı maraqlı ifadələr qeyd olunmuşdur: "Vəkillər sistemi təsisatının nüfuzunu daha da yüksəltmək, vəkillərin qanunla onlara verilən hüquqlardan daha dolğun istifadəsini təmin etmək, hüquq məsləhətxanalarının və vəkillərin normal işləmələrindən ötrü şərait yaradılmasına kömək etmək məqsədilə ədliyyə nazirlikləri qarşısında yeni vəzifələr qoyulur.

Bununla bərabər, 1978-ci il Kontistusiyasını vəkilliyin institusionallaşması və təşkilatlanması baxımından mühüm sənəd hesab edə bilərik. Belə ki, həmin Konstitusiyanın 173-cü maddəsində aşağıdakılar təsbit olunmuşdur: "Vətəndaşlara və təşkilatlara hüquqi yardım üçün Vəkillər Kollegiyası fəaliyyət göstərir. Qanunvericiliklə nəzərdə tutulan hallarda vətəndaşlara hüquqi yardım pulsuz göstərilir".

Lakin söhbət əgər müstəqil vəkillikdən gedirsə, o zaman Azərbaycanda vəkillik institutunun müstəqil təsisat kimi formalaşması və fəaliyyətinin bilavasitə Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olması qeyd edilməlidir Belə ki, Ümummilli Liderin rəhbərliyi ilə 1995-ci ildə Azərbaycan Respublikasının yeni konstitusiya layihəsinin hazırlanması üzrə komissiya, 1996-cı ildə isə Hüquqi İslahat Komissiyası yaradılmışdır ki, məhz bu dövrdən sonra müstəqil Azərbaycan vəkilliyinin əsasları formalaşdırıldı, Vəkillər Kollegiyası müstəqil təsisat olaraq məhkəmə-hüquq sistemində öz layiqli yerini tutdu. Bu zamana qədər isə vəkillik fəaliyyəti Ədliyyə Nazirliyinin müvafiq şöbəsi tərəfindən təşkil edilir və nəzarətdə saxlanılırdı. Bütün bu fəaliyyətin məntiqi davamı olaraq Ümummilli Lider Heydər Əliyev tərəfindən 28 dekabr 1999-cu ildə "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanun imzalanmış, Azərbaycan tarixində ilk dəfə vəkillik tam müstəqil, hakimiyyətin heç bir qolundan asılı olmayan bir təsisata dönmüş və həmin dövrdə qəbul olunmuş yeni prosessual qanunvericiliyə əsasən, vəkillik çəkişmə prinsipi çərçivəsində prosesin bərabərhüquqlu tərəfinə çevrilmişdir. Müstəqilliyin təməlini qoyan qanunun qəbulundan sonra isə ilk dəfə olaraq 3 noyabr 2004-cü ildə Azərbaycan Respublikasının Vəkillər Kollegiyası təsis olundu.

Azərbaycan Respublikasının Konstitusiyasında da təsbit edildiyi kimi, vətəndaşlara yüksəkkeyfiyyətli və peşəkar hüquqi yardım göstərilməsi dövlətin öhdəliyindədir və bu öhdəlik məhz Azərbaycan Respublikasının Vəkillər Kollegiyası vasitəsilə həyata keçirilir. Bu səbəbdən Azərbaycanda vəkillik institutunun inkişafı və nüfuzunun artırılması istiqamətində bir sıra normativ-hüquqi aktlar, çoxsaylı sərəncamlar və s. sənədlər qəbul olunmuşdur ki, bu da Ulu Öndərin layiqli davamçısı möhtərəm Prezident İlham Əliyevin adı ilə birbaşa bağlıdır.

Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Prezidentinin 7 noyabr 2017-ci il tarixli sərəncamları ilə Azərbaycan Respublikasının Mülki Prosessual, İnzibati Prosessual məcəllələri və "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanununa dəyişikliklər təsdiq edilmişdir. Həmin sərəncamlar ilə vəkillik institutunun hüquq sistemində yerinin gücləndirilməsi, peşəkar və yüksəkkeyfiyyətli hüquqi yardımın məhz vəkillərə həvalə olunması qət olunmuşdur. Hətta bu çərçivədə, ölkədə vəkillərin sayının artırılması məsələsi Vəkillər Kollegiyasına tövsiyə olunmuşdur.

Həmçinin 22 fevral 2018-ci il tarixdə qəbul olunmuş "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı qeyd olunan tədbirlər müstəvisində tarixi önəmə malikdir. Belə ki, sərəncamın preambulasında qeyd olunur ki, vətəndaşların yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun həyata keçirilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi və ədalət mühakiməsinin səmərəli fəaliyyəti üçün güclü və nüfuzlu vəkillik təsisatının böyük əhəmiyyəti vardır. Bu sərəncamda Azərbaycan Respublikası Vəkillər Kollegiyasının müvafiq binalar ilə təmin olunması, dövlət hesabına göstərilən hüquqi yardıma görə müəyyən edilmiş məbləğin 3 dəfə artırılmasını və s. məsələlər öz əksini tapmışdır. Adıçəkilən

sərəncamda qeyd olunan işlər bu gün tam gücü ilə icra olunmaqdadır. Sərəncamda həm də Vəkillər Kollegiyasının və vəkillərin fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini və hüquqi xidmətlərin elektron formada göstərilməsi təcrübəsini genişləndirmək üçün vəkilliyin vahid elektron informasiya sisteminin təşkili və bu sistemin "Elektron məhkəmə" informasiya sisteminə inteqrasiyası istiqamətində tədbirlər görülməsi tövsiyə olunmuşdur. Vəkillər Kollegiyasının rəsmi internet səhifəsində yer alan elektron vəkil kabinetlərində "Elektron məhkəmə" portalına çıxış da təmin edilmişdir.

Bundan əlavə, ölkəmizdə vəkilliyə verilən əhəmiyyətdən danışmışkən, bir məsələyə də toxunmadan keçmək olmaz. Bu gün vəkillər məhkəmə hakimiyyətinin özünü idarə edilməsi, habelə məhkəmə hakimiyyətinin formalaşdırılması işində, yəni Məhkəmə-Hüquq Şurasının və Hakimlərin Seçki Komitəsinin işində də fəal iştirak edir. Həmçinin bu gün Vəkillərin İxtisas Komissiyasının işində həm məhkəmə hakimiyyətinin təmsilçiləri, həm də hüquqşünas alimlər iştirak edirlər.

Vəkillər Kollegiyası ədliyyə və məhkəmə orqanları ilə əməkdaşlıq şəraitində vəkilliyin inkişafı, yüksəkkeyfiyyətli hüquqi yardımı vətəndaşlara əlçatan etmək məqsədilə çoxşaxəli təşəbbüslər həyata keçirməkdədir.

Həmçinin Azərbaycan Respublikası Prezidentinin 03.04.2019-cu il tarixli "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı vəkilliyin ölkəmizdə daha da mütərəqqi quruma çevrilməsi baxımından tarixi sənəd olmaqla yanaşı, gələcək dövr üçün onun inkişaf trayektoriyasını müəyyən edən yol xəritəsidir. Sənəddə mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatının effektivliyinin artırılması, xüsusən sahibkarlıqla bağlı məsələlərin məhkəmələrdə daha sürətli və səmərəli həllinin təmin edilməsi məqsədilə digər qurumlarla bərabər Vəkillər Kollegiyasına mülki prosessual qanunvericiliyi kompleks şəkildə birgə təhlil edib, bu sahədə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla onun təkmilləşdirilməsi barədə təkliflər hazırlanması, vəkillərin hakimlərlə və cinayət təqibini həyata keçirən orqanların əməkdaşları ilə qeyri-prosessual münasibətlərə yol verməsinin qarşısının alınması üçün tədbirlərin gücləndirilməsi tövsiyə olunub. Habelə Nazirlər Kabinetinə tapşırılıb ki, dövlət hesabına həyata keçirilən hüquqi yardım üçün tələb olunan vəsaitin birbaşa Vəkillər Kollegiyasına ayrılması barədə işlər görülsün. Bu gün bu istiqamətdə Kollegiya tərəfindən çevik və əməli işlər görülməkdədir.

Bundan əvvəl də 2005-ci ildə dövlət başçısı "Azərbaycan Respublikası Vəkillər Kollegiyasının maddi-texniki təminatının yaxşılaşdırılması üzrə tədbirlər barədə" Sərəncam imzalamışdır. Həmin sərəncam Azərbaycan vəkilliyinin inkişafına dövlət tərəfindən verilmiş əməli dəstək kimi qiymətləndirilmişdir.

Son nəticədə görülən işlərin hamısının qayəsini şəxslərin keyfiyyətli hüquqi yardımla təmin edilməsi təşkil edir ki, bu, ölkəmizdə vətəndaşların hüquqlarının müdafiəsi istiqamətində həyata keçirilən dövlət siyasətinin tamamlayıcı seqmentlərindən biridir. Azərbaycan Respublikasının Vəkillər Kollegiyası bu sahədə aparılan mütərəqqi dövlət siyasətinin daim dəstəkləyicisi və bu siyasətin bir parçası olmaqda davam edəcəkdir.

Qeyd etmək yerinə düşər ki, dövlət başçısı tərəfindən qəbul olunmuş tarixi sənədlər nəticəsində son dövrlər Vəkillər Kollegiyası institusional səviyyədə güclənmiş, ictimaiyyət arasında və beynəlxalq səviyyədə nüfuzlu quruma çevrilmişdir. Bu nüfuzun formalaşmasına Kollegiyanın BMT, AŞ, Beynəlxalq Miqrasiya Təşkilatı, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti, Avropa Hüquqşünas Tələbələri Assosiasiya kimi beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq münasibətlərinin qurulması, vəkillərin Böyük Britaniyada vəkilliyə qəbul üzrə müvafiq imtahanı verməklə orada vəkilliyə qəbul oluna və İngiltərə və Uels ərazisində vəkillik fəaliyyəti ilə məşğul ola bilmələri üçün Birləşmiş Krallığın Hüquq Cəmiyyəti ilə əlaqələrin yaradılması, gənc hüquqşünas tələbələr üçün təqaüd və təcrübə proqramlarının təşkili, 2017-ci ilə nisbətdə ölkədə vəkillərin sayının 83 faizədək artırılması, vəkilliyə qəbul prosesinin sadələşdirilərək daimi əsaslarla təşkil edilməsi səbəb olmuşdur. Eyni zamanda, ölkə üzrə vəkil qurumlarının sayının 39-dan 73-dək artırılması, vəkillərin fəaliyyətində elektron texnologiyalardan istifadə imkanlarının genişləndirilməsi, ölkə üzrə bir sıra ASAN xidmət mərkəzlərində (Masallı, Bərdə, Qəbələ, İmişli) aztəminatlı əhaliyə pulsuz hüquqi yardım xidmətlərinin təşkili, Kollegiyanın fəaliyyətinin

ictimaiyyətə və mediaya açıqlığının təmin edilməsi, Sumqayıtda ən müsair standartlara cavab verən Regional Vəkil Bürosunun yaradılması, habelə bu yaxınlarda Şəki, Şirvan və Gəncə şəhərlərində analoji regional mərkəzlərin açılacağı və digər görülmüş işlər də mühüm rol oynamışdır.

Unudulmamalıdır ki, Azərbaycan vəkilliyində əldə olunmuş müsbət nəticələr Ulu öndər Heydər Əliyevin təməlini qoyduğu müstəqil vəkilliyin inkişafına xalqımızın layiqli lideri Prezident İlham Əliyevin qayğısının nəticəsidir. Bu baxımdan, aparılan islahatlar, şübhəsiz, tək bu gün üçün deyil, həm də gələcəyə hesablanmış addım olaraq dəyərləndirilməlidir.

Sonda əminliklə demək olar ki, 28 dekabr 1999-cu il - "Vəkillər və vəkillik fəaliyyət haqqında" qanunun imzalanması günü Ulu Öndər Heydər Əliyevin xidməti ilə vəkilliyimizin tarixinə qızıl hərflərlə həkk olunub.



**Akif Əlizadə**

*Vəkillər Kollegiyasının üzvü*

## AZƏRBAYCAN VƏKİLLİYİ – 100 il (1919-2019)

**Azərbaycan Rusiya İmperiyasının tərkibində**

Azərbaycan vəkilliyinin inkişafı bir neçə tarixi mərhələdən keçib. 10 fevral 1828-ci ildə Rusiya Imperiyası ilə Qacar (Məmləkəti Məhrusi Qacar) İmperiyası arasında bağlanan Türkmənçay müqaviləsi Azərbaycan adlı məmləkətin şimal və cənub hissələrə bölünməsinin təsdiqi və sonu oldu. Bu müqavilədən sonra Araz çayı sərhəd olmaqla Azərbaycanın şimal ərazisi Rusiya İmperiyasının, cənubu isə həmin dövrdə Qacar İmperiyası, 20-ci əsrin əvvəllərindən isə İran adlanan dövlətin idarəçiliyinə keçdi.

Azərbaycanın şimal hissəsinin işğalından otuz-qırx il sonra, 19-cu əsrin ikinci yarısı Rusiya imperiyası əhəmiyyətli islahatlarla yadda qaldı. 1861-ci ildə təhkimçiliyin ləğvindən sonra imperiyada ciddi məhkəmə islahatı aparılmağa başlandı və bütün çarlıq ərazisini əhatə edən 20 noyabr 1864-cü il tarixli Məhkəmə Nizamnaməsi qəbul edildi.

1864-cü il Məhkəmə Nizamnaməsinə uyğun olaraq imperiya ərazisində yeni (və avropa sayağı) vəkillik institutu yarandı. Nizamnaməyə görə vəkillik 2 hissədən ibarət idi: ali kateqoriyalı vəkillər – andlı müvəkkillər, aşağı kateqoriyalı vəkillər – şəxsi müvəkkillər adlanırdı. Andlı müvəkkilləri yerli özünüidarə orqanı seçir və onların fəaliyyətinə nəzarət edirdi. Andlı müvəkkillər ali hüquq təhsilli, 5 il hüquq ixtisasına malik, yaşı 25-dən az olmayan və məhkum olmamış şəxslər seçilə bilərdi. Şəxsi müvəkkillərin isə ali hüquq təhsili olmaya da bilərdi, onlar məhkəmədə imtahan verərək yalnız qeydiyyatdan keçdikləri məhkəmədə az əhəmiyyətli işlərlə məşğul ola bilərdi.

1864-cü il Məhkəmə Nizamnaməsinə uyğun aparılan məhkəmə islahatı xüsusi qərarla 22 noyabr 1866-cı ildən Cənubi Qafqaza (Azərbaycana) da şamil olundu. Azərbaycan əyalətlərində (Bakı və Yelizavetpol quberniyaları) məhkəmə idarələri bir sıra məhdudiyytələrlə 1868-1869-cu illərdən fəaliyyət göstərməyə başladı. O vaxta qədər isə əyalətlərdə dünyəvi məhkəmələrin və bu məhkəmələrdə fəaliyyət göstərən vəkillik təsisatının olması haqda səhih məlumat vardır. Xanlıqlar dövründə yerlərdə şəriət məhkəmələri (qazilər) və onların yanında fəaliyyət göstərən mirzələr olub. Şəriət məhkəməsi və mirzəlik bizim indiki məhkəmə və vəkillik təsisatımıza bənzəsə də, bir az dünyəvi, bir az da dini olmaqla islam qaydaları və adət-ənənələri ilə fəaliyyət göstərib. Hərçənd ki, Rusiya İmperiyası 10 aprel 1840-cı il islahatı ilə Cənubi Qafqazın (əsasən Azərbaycanın) məhkəmə sistemində ciddi dəyişiklik edilməsini – şəriət məhkəmələrinin ləğv edilməsini nəzərdə tutsa da, islahat sona çatdırılmamış, dünyəvi məhkəmə və vəkillik 1864-cü il Məhkəmə Nizamnaməsinin qəbulundan sonra təşəkkül tapmışdır.

Məhkəmə Nizamnaməsinin Azərbaycanda tətbiqindən sonra bir neçə azərbaycanlı gənc Rusiya İmperiyasının Moskva, Peterburq, Odessa, Kiyev və Xarkov Universitetlərinin hüquq fakultəsinə daxil olmuş, təhsillərini başa vurduqdan sonra vətənə qayıdaraq məhkəmə-vəkillik fəaliyyəti ilə məşğul olmuş, Məhkəmə Nizamnaməsinin Azərbaycanda gerçəkdən reallaşmasına və mənsub olduqları xalqın hüquq və azadlıqlarının müdafiə edilməsinə çalışmışlar.

Azərbaycan vəkilliyinin banisi - 1863-cü ildə Tiflis şəhərində anadan olmuş Əlimərdan bəy

Topçubaşov 1888-ci ildə Sank-Peterburq Universitetinin hüquq fakultəsini bitirmiş, həmin il dissertasiya müdafiə edərək hüquq elmləri namizədi elmi dərəcəsini almışdı. Xristianlığı qəbul etməkdən imtina etdiyinə görə Topçubaşova təhsil aldığı Universitetdə qalaraq elmi fəaliyyətini davam etdirməyə icazə verilmədiyindən, o, anadan olduğu Tiflis şəhərinə qayıtmışdır. Ə.Topçubaşov Tiflis Dairə Məhkəməsində əvvəlcə katib, daha sonra müstəntiq və hakim işləmişdir. Ə.Topçubaşov 1893-cü ildə böyük mütəfəkkir Həsən bəy Zərdabinin qızı Pəri xanımla ailə quraraq az sonra Bakı şəhərinə köçmüşdür. Ə.Topşubaçov 1896-cı ildən Bakı Dairə Məhkəməsində andlı müvəkkil statusunda vəkillik fəaliyyətinə başlamış və tez bir zamanda tanınmış, nüfuzlu və ilk peşəkar azərbaycanlı vəkil olmuşdur. Məhz buna görə də Azərbaycan vəkilliyinin başlanğıcı Əlimərdan bəy Topçubaşovun adı ilə bağlıdır.

1875-cü ildə Şəki şəhərində anadan olan Fətəli xan Xoyski 1897-ci ildə Moskva Universitetinin hüquq fakultəsini bitirmiş, həmin ildən Gəncə (Yelizavetpol) Dairə Məhkəməsi yanında kiçik məhkəmə məmuru, daha sonra Bakı Dairə Məhkəməsində andlı müvəkkil statusunda vəkillik fəaliyyəti ilə məşğul olmuşdur.

1867-ci ildə Gəncə şəhərində (Yelizavetpol quberniyası) anadan olmuş İsmayıl xan Ziyadxanov Moskva Universitetinin hüquq fakultəsini bitirərək əvvəlcə Tiflis Dairə Məhkəməsində prokuror müavini, 20-ci əsrin əvvəllərindən isə Gəncə və Bakı Dairə Məhkəmələrində andlı müvəkkil statusunda vəkillik fəaliyyəti ilə məşğul olmuşdur.

1870-ci ildə Gəncə şəhərində (Yelizavetpol quberniyası) anadan olmuş Xəlil bəy Xasməmmədov 1895-ci ildə Moskva Universitetinin hüquq fakultəsini bitirərək əvvəlcə Yekatirinodar Dairə Məhkəməsində, 20-ci əsrin əvvəllərindən isə Gəncə və Bakı Dairə Məhkəmələrində andlı müvəkkil statusunda vəkillik fəaliyyəti ilə məşğul olmuşdur.

Fətəli xan Xoyskinin kiçik qardaşı - 1888-cü ildə Şəki şəhərində anadan olan Rüstəm xan Xoyski 1913-cü ildə Sank-Peterburq Universitetinin hüquq fakultəsini bitirmiş, Gəncə və Bakı Dairə Məhkəmələrində andlı müvəkkil statusunda vəkillik fəaliyyəti ilə məşğul olmuşdur.

1880-cı ildə Naxçıvanın Şahtaxtlı kəndində anadan olan Həmid bəy Şahtaxtinski 1912-ci ildə Odessa Universitetinin hüquq fakultəsini bitirmiş, həmin ildən Gəncə (Yelizavetpol) Dairə Məhkəməsində iki il andlı müvəkkilin köməkçisi, sonra Bakı şəhərinə köçərək Bakı Dairə Məhkəməsində eyni fəaliyyətini davam etdirmişdir.

1881-cı ildə Gəncə qəzasının Səfikürd kəndində anadan olan Aslan bəy Səfikürdski 1901-ci ildə Xarkov Universitetinin hüquq fakultəsinə daxil olmuş, 1902-ci ildə öz xahişi ilə Sank-Peterburq Universitetinə köçürülmüş, 1907-ci ildə hüquq fakultəsini bitirdikdən sonra Gənşə şəhərinə qayıtmışdır. O, 1907-1911-ci illərdə Gəncə Dairə Məhkəməsində andlı müvəkkil köməkçisi, 1911-1917-ci illərdə isə andlı müvəkkil statusunda vəkillik fəaliyyəti ilə məşğul olmuşdur.

1889-cu ildə Şuşa şəhərində (Yelizavetpol quberniyası) anadan olmuş Nəriman bəy Nərimanbəyli 1915-ci ildə Xarkov Universitetinin hüquq fakultəsini bitirərək İrəvan şəhərində andlı müvəkkil statusunda vəkillk fəaliyyəti ilə məşğul olmuşdur.

1880-cı ildə Salyanda nüfuzlu ruhani, sonralar (1894-cü ildən) Qafqaz Müsəlmanları İdarəsinin rəisi - şeyxülislam olmuş Əbdüssalam Axundzadənin ailəsində doğulmuş Rəşid bəy Axundzadə 1912-ci ildə Kiyev Universitetinin hüquq fakultəsini bitirərək Bakı Dairə Məhkəməsində andlı müvəkkil statusunda vəkillik fəaliyyəti ilə məşğul olmuşdur.

**Azərbaycan Xalq Cumhuriyyəti dövrü**

20 noyabr 1864-cü il Məhkəmə Nizamnaməsi Azərbaycan Xalq Cumhuriyyəti dövründə də işlək olmuşdur. Ancaq AXC-nin Ədliyyə Nazirliyi 30 iyul 1919-cu ildə Azərbaycan Dairə Məhkəmə Palatası Andlı Müvəkkillər Şurasının yaradılması haqqında qərar qəbul etmiş və vəkillik AXC devrilənə qədər adı çəkilən Şuranın rəhbərliyi altında fəaliyyət göstərmişdir.

Qürurverici haldır ki, Azərbaycan Xalq Cumhuriyyəti qurulana qədər Bakı və Gəncədə fəaliyyət göstərən vəkillərin hamısı milli hökumət quruculuğunda fəal iştirak edərək gənc dövlətin liderliyinə qədər yüksəlmişlər.

AXC liderlərindən Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, İsmayıl xan Ziyadxanov, Xəlil bəy Xasməmmədov, Rüstəm xan Xoyski və Rəşid bəy Axundzadə 20-ci əsrin əvvəllərində Məhkəmə

Nizamnaməsinə uyğun olaraq vəkillərin reyestrində - Bakı Dairə Məhkəməsi Andlı Müvəkkillərin Siyahısında qeydə alınsalar da, AXC yaranana qədər vəkillik (andlı müvəkkillər) fəaliyyəti ilə məşğul olmuş, Cumhuriyyət quruculuğunda fəal iştirak edən və sonradan milli hökumətdə yüksək vəzifə tutan digər vəkillər - Həmid bəy Şahtaxtinski, Aslan bəy Səfikürdski və Nəriman bəy Nərimanbəyli məlum olmayan səbəbdən nə Bakı, nə də Gəncə Dairə Məhkəməsinin Andlı Müvəkkillərinin Siyahısında qeydə alınmamışlar.

Bir məqamı da vurgulamağı zəruri sayıram. 1828-ci il işgalından sonra Rus imperiyasının bütün milli ucqarlarda olduğu kimi Cənubi Qafqazda (Azərbaycanda) da apardığı anti müsəlman-türk siyasətinin nəticəsi idi ki, 1870-ci ildən başlayaraq ən azı yarım əsr ərzində Gəncə və Bakı Dairə Məhkəmələrinin hakimləri və andlı müvəkkillərin (vəkillər) böyük hissəsi qeyri-türk (müsəlman) müllətindən olmuşdur. Bakı Dairə Məhkəməsi sədrinin Ədliyyə Nazirliyinə ünvanladığı 14 avqust 1919-cu il tarixli, 4254 nömrəli məktubuna əlavə edilmiş Bakı Dairə Məhkəməsi Andlı Müvəkkillərin siyahısında 106 nəfər andlı müvəkkildən cəmi 6 nəfəri - Ə.Topçubaşov, Fətəli xan və Rüstəm xan Xoyski qardaşları, Xəlil bəy Xasməmmədov, İsmayıl xan Ziyadxanov və Rəşid bəy Axundzadə müsəlman-türk olmuş, digər andlı müvəkkillər isə rus, erməni, yəhudi və digər millətlərdən olmuşlar. Gəncə Dairə Məhkəmə sədrinin Ədliyyə Nazirliyinə ünvanladığı 09 avqust 1919-cu il tarixli, 1496 nömrəli məktubuna əlavə edilmiş Gəncə Dairə Məhkəməsi Andlı Müvəkkillərin siyahısında 5 nəfər andlı müvəkkilin 2-i rus, 3 nəfəri isə erməni olmuşdur. Bu ona görə baş vermişdir ki, imperiyanı idarə edənlər milli azlıqların rus ali məktəblərinə daxil olmasına süni əngəllər yaradır və hər vəchlə çalışılırdı ki, milli əyalətlərdə yerli xalqın nümayəndəsi olan daha az məmur olsun. Bu barədə o dövr andlı müvəkkil kimi fəaliyyət göstərən, Gəncədən (Yelizavetpol quberniyası) Rusiya İmperiyası 1-ci Dövlət Dumasının üzvü olan millət vəkili İsmayıl xan Ziyadxanov 1906-cı ildə Dumanın iclasinda söylədiyi nitqində demişdi: “Biz müsəlmanlara bəzi ali məktəblərə girmək haqqı verilməmişdir. Başqa ali məktəblərə isə yalnız diplom almaq xatrinə girilməkdədir. Məmur olmaq məsələsinə gəlincə, bu gün Qafqaz daxilində bir yüksək təhsilli mülki hakim istisna edilərsə, öz vətənində xidmət edən bir müsəlman məmuruna rast gəlməzsiniz”

**Fikrimcə, 1896-1920-ci il (28 aprel tarixini) əhatə edən dövrü Azərbaycan vəkilliyinin inkişafı tarixinin birinci mərhələsi hesab etmək olar.**

**Azərbaycan Sovet dövrü**

Azərbaycan Xalq Cumhuriyyəti höküməti 28 aprel 1920-ci ildə devrildikdən az sonra hakimiyyəti mənimsəyən bolşevik hökuməti - Azərbaycan İnqilab Komitəsi əvvəlki vəkillik institutunu (andlı və şəxsi müvəkkillər) ləğv etmiş, əvəzində İttihamçılar və Müdafiəçilər Kollegiyasının yaradılması haqqında 13 may 1920-ci il tarixli qərar qəbul etmişdir. 23 may 1920-ci ildə Bakı şəhərində 36 nəfərdən ibarət İttihamçılar və Müdafiçilər Kollegiyası təsis edilmişdi.

Azərbaycan Xalq Komissarları Sovetinin 9 aprel 1922-ci il tarixli, 24 saylı dekreti ilə isə əvvəlki İttihamçılar və Müdafiçilər Kollegiyası ləğv edilmiş və hüquqi yardım büroları vasitəsilə əhaliyə hüquqi yardım göstərməli olan Müdafiəçilər Kollegiyası yaradılmış, daha sonra Azərbaycan SSR-nin Mərkəzi İcraiyyə Komitəsinin 17 noyabr 1923-cü il tarixli Dekretilə “Məhkəmə quruluşu haqqında” Əsasnamə qəbul edilmiş, vəkillik fəaliyyəti bu əsasnaməyə uğun olaraq Cinayət və Mülki İşlər üzrə Müdafiəçilər Kollegiyası kimi xalq dairə məhkəmələrinin nəzdində fəaliyyət göstərmişdir. Daha sonra Azərbaycan Xalq Komissarları Soveti və Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin birgə qərarları ilə vəkillik institutunun təşkilində bəzi dəyişikliklər edilmiş, vəkillik fəaliyyəti 1927-ci ildə xalq dairə məhkəmələrinin nəzdindən ayrılaraq Ali Məhkəmənin nəzdində və nəzarətində olan Müdafiəçilər Kollegiyası kimi təşkil edilmiş, 1930-cu ildə isə hüquqi yardımla bağlı bəzi dəyişikliklər edilərək adı çəkilən Müdafiəçilər Kollegiyası daha uzun müddətə - 1939-cu ilədək mövcud olmuşdur.

**1920-1939-cu illər arasındakı dövrü Azərbaycan vəkilliyinin inkişafı tarixinin ikinci mərhələsi hesab etmək olar.**

SSRİ Xalq Komissarları Sovetinin 16 avqust 1939-cu il tarixli qərarı ilə təsdiq edilmiş “SSRİ-də vəkillik haqqında Əsasnamə”nin qəbulundan sonra Azərbaycan SSR-də (bu vaxta qədər mövcudluğunu cüzi də olsa saxlayan) Vəkillər Kollegiyası yarandı. Bu Əsasnaməyə uyğun olaraq

yaradılan Vəkillər Kollegiyasının əsas vəzifəsi hüquq məsləhətxanaları vasitəsilə əhaliyə hüquq yardımın göstərilməsi idi. Bu Əsanaməyə görə Vəkillər Kollegiyasının üzvü seçkili vəzifə və elmi-pedaqoji fəaliyyətdən savayı dövlət qulluğunda işləyə bilməzdi. Hansı ki, həmin vaxta qədər mövcud olan Əsasnamə vəkillərə istənilən dövlət (və ya kollektiv) müəsisəsində hüquq məsləhətçisi vəzifəsi tutmağa imkan verirdi. Bu Əsasnamə 2-ci dünya müharibəsi və sonrakı uzun illər ərzində işlək olmuşdur. Bunu da vurğulamağı istərdim ki, ikinci dünya müharibəsi zamanı Azərbaycan Vəkillər Kollegiyasının 119 üzvü cəbhəyə yollanmış və Azərbaycan adına vətən uğrunda döyüşmüşlər.

25 dekabr 1958-ci ildə qəbul edilən "SSRİ müttəfiq respubkalarının məhkəmə quruluşu haqqında qanunvericiliyin əsasları"na görə Vəkillər Kollegiyası hər bir müttəfiq respublikanın Ali Sovetinin qəbul etdiyi qanunvericilik əsasında fəaliyyət göstərməli idi. Sözügedən "Əsaslara" uyğun olaraq Azərbaycan SSR Ali Soveti 8 dekabr 1960-cı ildə "Vəkillik haqqında Əsasnamə" qəbul etmiş, bu Əsasnaməyə görə Vəkillər Kollegiyasının fəaliyyətinə nəzarəti Nazirlər Soveti həyata keçirmişdir. Azərbaycan SSR Ali Sovetinin 20 oktyabr 1965-ci ildə qəbul etdiyi "Vəkillik haqqında Əsasnamə"yə görə isə Vəkillər Kollegiyasının fəaliyyətinə nəzarəti Ədliyyə Nazirliyi həyata keçirmiş, bu Əsasnamə 1980-cı ilə qədər qüvvədə olmuşdur.

**1939-1979-cu illər arasındakı dövrü Azərbaycan vəkilliyinin inkişafı tarixinin üçüncü mərhələsi hesab etmək olar.**

30 noyabr 1979-cu ildə "SSRİ-də vəkillik haqqında" yeni qanun qəbul olunmuş, bu qanuna uyğun olaraq Azərbaycan SSR Ali Sovetinin qəbul etdiyi 13 noyabr 1980-cı il tarixli qanunla "Azərbaycan SSR-də vəkillik haqqında" yeni və təxminən 19 il – 1980-1999-cu illər ərzində işlək olan Əsasnamə qəbul edilmişdir. Bu Əsasnaməyə görə Vəkillər Kollegiyası vəkillik fəaliyyəti ilə məşğul olan vəkillərin könüllü birliyi olmuşdur. Vəkillər Kollegiyası ali hüquq təhsilli şəxslərdən ibarət təsisçilər qrupunun təklifi əsasında və ya müvafiq Xalq Deputatları Sovetinin icra və sərəncam orqanının təşəbbüsü ilə yaradılırdı. Əsasnaməyə görə Vəkillər Kollegiyasını yaratmaq haqqında təklif Azərbaycan SSR Ədliyyə Nazirliyinə göndərilir, nazirlik təkliflə razılaşdıqda təsdiq və qeydiyyat üçün onu Nazirlər Sovetinə, yaxud da yerli İcra orqanına göndərirdi. Bu əsasnamə əsasında yaradılan Vəkillər Kollegiyası əvvəlkitək (dolayısı ilə) Ədliyyə Nazirliyinə tabe etdirilmişdi. Əsasnamədə indiki "Vəkillər və vəkillik fəaliyyəti haqqında qanun"a oxşar xeyli məqamlar olsa da, fərqli cəhətləri də az olmamışdur. Bu Əsasnamədə vəkillər kollegiyasının orqanları, vəkilliyə qəbul qaydaları, vəkilin pulsuz hüquq yardımı göstərməsi, vəkilin intizam məsuliyyətinə alınması məsələləri və sair tam fərqli qaydada nizamlanmışdır. "Azərbaycan SSR-də vəkillik haqqında" həmin (və sonuncu) Əsasnaməyə görə Vəkillərin ixtisas komissiyası olmamış, vəkilliyə qəbul zamanı iki il hüquq stajı tələb olunmuş, bu staj ümumiyyətlə olmadıqda və ya iki ildən az olduqda altı aydan bir ilə qədər kollegiyada staj keçməklə üzv olmaq imkanı olmuş, vəkilin bütün yox, yalnız konkret mülki işlərdə (məsələn alimentlə bağlı) pulsuz hüquq yardımı göstərə bilmək hüququ olmuş, Ədliyyə Nazirinin vəkilin intizam məsuliyyətinə dair iş qaldırmaq barədə Reyasət Heyyətinin sədrinə təklif vermək səlahiyyəti olmuşdur. Həmçinin Əsasnamədə vəkil andı, vəkil etikası və vəkil sirri nəzərdə tutulmamışdır.

**1980-1992-ci illər arasındakı dövrü Azərbaycan vəkilliyinin inkişafı tarixinin dördüncü mərhələsi hesab etmək olar.**

**Azərbaycan müstəqillik dövründə**

18 oktyabr 1991-ci ildə ölkəmizin parlamenti "Müstəqillik haqqında" Konstitusiya Aktını qəbul etdi və SSRİ adlanan dövlətdən ayrılan (ittifaqdan çıxan) Azərbaycan Respublikası müstəqil dövlət (beynəlxalq hüququn subyekti olan) oldu. Müstəqilliyin ilk illərində bir çox qanunlar kimi 13 noyabr 1980-cı il tarixli qanunla təsdiq edilmiş "Azərbaycan SSR-də vəkillik haqqında" Əsasnamə də 1999-cu ilə qədər – hazırkı müvafiq qanunun qəbuluna qədər qüvvədə olmuşdur.

Qeyd etmək lazımdır ki, 1992-2000-ci illərdə adıçəkilən əsasnamə əsasında vəkillik fəaliyyəti ilə yanaşı (sahibkarlıq fəaliyyəti kimi göstərilən) xüsusi razılıq əsasında pullu hüquqi xidmət növü də mövcud olmuş, belə xidməti göstərənlər isə mülki və inzibati işlərlə yanaşı hətta cinayət işlərində də müdafiəçi qismində iştirak edə bilmişlər. Vəkillər Kollegiyasının Bakı şəhərində, eləcə də digər şəhərlərdə və rayonlarda fəaliyyət göstərən hüquq məsləhətxanaları ilə yanaşı müxtəlif adlarla pullu

hüquq xidməti göstərən özəl – Vəkillər Kollegiyasından kənar hüquq firmaları və şirkətləri də fiziki və hüquqi şəxslərə "vəkil" adı ilə hüquqi yardım göstərmişdir.

Müstəqilliyinin ilk illərini yaşayan Azəbaycan Respublikasında Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında 12 noyabr 1995-ci ildə hüquqi dövlətin tələblərinə tam cavab verən Konstitusiya qəbul olunmuş, ölkə tarixində ilk dəfə olaraq hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ konstitusiya ilə təsbit edilmişdir. Konstitusiyada qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardımın ödənişsiz, dövlət hesabına göstərilməsi, hər bir şəxsin səlahiyyətli dövlət orqanları tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququ təsbit edilmişdir.

Bundan sonra Azərbaycan Respublikasının Milli Məclisi "Vəkillər və vəkillik fəaliyyəti haqqında" 28 dekabr 1999-cu il tarixli qanun qəbul etmiş, Azərbaycan vəkilliyi bu vaxtadək bu qanun və ona müxtəlif vaxtlarda edilən əlavə və dəyişikliklərə əsasən fəaliyyət göstərməkdədir. Bu qanunla ilk dəfə olaraq vəkillik təsisatı tam müstəqil, özünü idarəedən, heç bir dövlət orqanından asılı olmayan qeyri-dövlət qurumu kimi formalaşdı. Bu qanunda əvvəlki hüquqi aktlardan fərqli olaraq vəkillərin hüquqları və vəzifələri genişləndirilmiş, vəkillik fəaliyyətində yeni institutlar yaranmış və demək mümkünsə vəkillik fəaliyyətində ciddi və mütərəqqi "nizam-intizam" müəyyənləşmişdir. Belə ki, sözügedən qanunun qəbulundan sonra cinayət işləri üzrə məhkəmə prosesində, ibtidai istintaqda və təhqiqatda müdafiçi qismində yalnız Vəkillər Kollegiyasının üzvlərinin iştirak edə bilməsi təsbit edilmiş, daha sonra qanuna edilən 11 iyun 2004-cü il tarixli dəyişikliklə cinayət işləri üzrə şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəsi, məhkəmənin baxdığı inzibati xəta haqqında iş üzrə icraatda fiziki şəxsin müdafiəsi, mülki işlər və inzibati mübahisələrə dair işlər üzrə şəxsin Azərbaycan Respublikası Ali Məhkəməsində təmsil edilməsi, habelə hüquq və azadlıqlarının pozulması ilə bağlı şikayət vermiş ərizəçinin Azərbaycan Respublikası Konstitusiya Məhkəməsində təmsil edilməsi vəkillik fəaliyyətinin müstəsna dairəsi hesab edilmişdir. Bundan başqa qanunda vəkillik fəaliyyətinin təminatı, qanunda nəzərdə tutulmuş qaydada vəkil statusunu əldə etməmiş şəxs tərəfindən vəkil adından qanunsuz istifadə olunmasının Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş məsuliyyətə səbəb olması, vəkil andı, vəkil sirri, vəkil etikası, vəkilliyə qəbul qaydaları, ixtisas komissiyası və sair əhəmiyyətli məsələlərlə bağlı müddəalar əksini tapmışdır.

28 dekabr 1999-cu ildə qəbul edilmiş "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanunun "Keçid müddəaları"nın 2-ci bəndində "Bu Qanunun Keçid müddəalarının qüvvəyə mindiyi gündən üç ay müddətində yeni Vəkillər Kollegiyasını təsis etmək üçün təsis yığıncağının keçirilməsi" nəzərdə tutulsa da, təsis yığıncağının keçirilməsi 2004-cü ilin sonuna qədər yubanmışdır.

**Azərbaycan vəkilliyinin inkişafı tarixinin beşinci mərhələsi hesab edilə bilən 1992-2004-cü illəri əhatə edən dövrü** bəzi müşahidəçilər vəkilliyin inkişafı baxımından durğunluq və "vəkillik fəaliyyətində qeyri-müəyyənliyin" hökm sürdüyü dövr kimi də xarakterizə edirlər. Ona görə ki, bu dövrdə adı çəkilən qanun qəbul olunaraq qüvvəyə minsə də, qanuna uyğun yeni Vəkillər Kollegiyası yaradılmamış, çox az sayda üzvləri olan və üzvlüyə qəbul prosesində çətinlikləri olan Vəkillər Kollegiyası demək mümkünsə əvvəlki "sovet ənənəsi" ilə fəaliyyət göstərmiş, vəkillikdə hər hansı irəliləyiş olmamışdır.

**Azərbaycan vəkilliyinin inkişafı tarixinin altıncı mərhələsi hesab edilən dovr** "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanunun keçid müddəalarına uyğun qaydada vəkillərin Təsis Yığıncağının keçirilməsi və Azərbaycan Respublikasında (yeni) Vəkillər Kollegiyasının təsis edilməsi ilə başlamışdır. Ancaq bəri başdan demək olar ki, bu dövr də özündən əvvəlki dövrdən "durğunluğuna" görə fərqlənməmişdir. Vəkillər Kollegiyasının 04.11.2004-cü il tarixli Təsis Yığıncağının qərarına əsasən (Yeni) Vəkillər Kollegiyası təsis edilsə də, uzun müddət vəkillik fəaliyyətində "köhnə sovet" ənənəsi yenə də üstünlük təşkil etmiş, nəzəri yeniliklər təcrübədə tam təşəkkül tapa bilməmiş, vəkilliyin maddi-texniki təminatında heç bir irəliləyiş – inkişaf olmamış, vəkil qurumları Vəkillərin baş ofisinin yerləşdiyi bina kimi sovetdən qalma "köhnə-külüş" və darısqal məkanlardan çıxa bilməmiş, Kollegiyanın beynəlxalq əlaqələri demək olar olmamış, Kollegiyaya üzv olmaq üçün xeyli problemlər olduğundan ölkədə çox az sayda, 300 nəfərdən bir az çox vəkil olmuş, regionlarda hər kəsin yüksək keyfiyyətli hüquq yardımı almaq kimi konstitusion hüququ məhdud həddə olmuş, Azərbaycanın əksər rayonlarında vəkil qurumları olmamış, mülki işlər üzrə məhkəmə prosesində qanundan və sivil qaydalardan kənar "özbaşına nümayəndəlik institutu" tüğyan edərək

qanuni vəkillik fəaliyyətini sıxışdırmış, dövlət hesabına pulsuz hüquq yardımının göstərilməsində çox ciddi qüsurlar olmuş, hər kəsin konstitusion yüksək keyfiyyətli hüquq yardımı almaq hüququ çox tez-tez pozulmuş və ən acınacaqlısı odur ki, həmin dövr Vəkillər Kollegiyasının rəhbərliyi bütün baş verənləri sadəcə seyr etməklə kifayətlənmiş, nəinki vəkillik təsisatının nüfuzuna, eləcə də dövlətin və cəmiyyətin maraqlarına cavab verən hər hansı tədbirlər görməmiş və ya buna təşəbbüs göstərməmişdir.

**Azərbaycan vəkilliyinin ən yeni tarixi**

**Azərbaycan vəkilliyinin inkişafı tarixinin yeddinci mərhələsi hesab edilən dövr** 07 dekabr 2017-ci ildə keçirilən Vəkillər Kollegiyasının konfransı ilə başladı. Bundan öncə vəkillər Kollegiyasının əvvəlki sədri Azər Tağıyev səhhəti ilə əlaqədar vəzifəsindən istefa vermişdi. 110 nümayəndənin iştirak etdiyi konfransda hüquq elmləri üzrə fəlsəfə doktoru, Hakimlərin Seçki Komitəsinin üzvü, Ədliyyə Akademiyasının "Vəkillərin peşəyə buraxılış və ixtisasartırma fakültəsi"nin dekan əvəzi, Akademiyanın elmi şurasının üzvü, Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 may tarixli Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunmuş peşəkar və tanınmış vəkil Anar Bağırov Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri seçilmiş, tanınmış və təcrübəli vəkillər Aydın Axundov və Pərviz Ələkbərov isə sədrin müavinləri seçiliblər. Əvvəlcədən deyə bilərəm ki, bu konfrans Azərbaycan Respublikası Vəkillər Kollegiyasına yeni rəhbərliklə yanaşı həm də vəkilliyə yeni nəfəs gətirdi. Vəkillər Kollegiyasının rəhbəriyində olan kadr dəyişikliyindən az sonra vəkilliyin acınacaqlı durumunun sürətlə dəyişilməsi və inkişafı məqsədilə Anar Bağırovun rəhbərlyi altında vəkillik təsisatında dövlət və cəmiyyət üçün həyati əhəmiyyət daşıyan islahatlar həyata keçirilməyə başlandı. İslahatlar komleks şəkildə aparıldı və hazırda da davam etməkdədir. Belə ki, yeni rəhbərlik bir tərəfdən müəyyən qismi yuxarda sadalalan, uzun illər yığılıb qalmış problemlərin köklü həllinə başladı, digər tərəfdən isə Kollegiyanın əvvəllər olmayan beynəlxalq əlaqələrinin yaradılması və Azərbaycan vəkilliyinin səviyyəsini sivil ölkələrin vəkilliyinə çatması üçün xeyli işlər gördü və bu işlər indi də davam edir.

Bu dövrə təsadüf edən bir məqamı da xatırlatmaq yerinə düşərdi. 2017-ci ilin payızı məhkəmədə nümayəndəlik institutunun yenidən təşkili, hüquqi yardımın Azərbaycan Respublikası Konstitusiyaının 61-ci maddəsinə uyğun təşkil edilməsi üzrə diskussiyalarla yadda qaldı. Azərbaycan dövləti hər kəsin yüksək keyfiyyətli hüquqi yardımla təmin olunması öhdəliyinin icrasını qanunla vəkillik təsisatının üzərinə qoyub. Bu baxımdan məhkəmədə şəxsin hüquq və azadlıqlarını yüksək səviyyədə müdafiə etmək Konstitusiya və qanunla vəkilliyin birbaşa vəzifəsi olsa da, bu sahədə uzun müddət tüğyan edən özbaşınalığa və ya "anarxiyaya" vaxtında və prinsipial etiraz bildirilməmişdi. Bütün hüquqi dövlətlərdə məhkəmədə hüquq və azadlıqların müdafiəsi ilə vəkillər, yaxud da bu fəaliyyətlə məşğul olmağa müvafiq dövlət orqanı tərəfindən verilmiş xüsusi razılıqla hüquqşünaslar məşğul olurlar. Hüquqi dövlət ərazisində olan hər kəsin yüksək keyfiyyətli hüquqi yardım hüququnu tanıyır. Ona görə də vəkillik fəaliyyətinin nəzarətdən kənarda olmaması məntiqə uyğundur. Təssüf ki, ölkəmizdə uzun müddət özünü vəkil adlandıran "özbaşına" (və ya "küçə") nümayəndəlik mövcud olmaqla vəkillik təsisatının, habelə dövlətin və cəmiyyətin maraqlarına zərbə vurmuşdur. Gec də olsa məhkəmə hakimiyyəti "özbaşına" nümayəndəliyə son qoymaq üçün qanunvericilik təşəbbüsü ilə çıxış etmiş, Milli Məclisin qəbul etdiyi 31 oktyabr 2017-ci il tarixli, 853 VQD nömrəli qanunla Mülki-Prosessual Məcəllədə ciddi dəyişiklik edilərək nəhayət ki, hər kəsin yüksək hüquqi yardım almaq hüququnun kütləvi pozuntusunun qarşısı alınmışdır. 01 yanvar 2018-ci ildən qüvvəyə minən həmin qanunla Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsinə (AR MPM) 69.1-1-ci maddəsi əlavə edilmişdir. Bu maddəyə görə fiziki şəxsin nümayəndəsi onun yaxın qohumu və ya vəkil (bu Məcəllənin 71-ci maddəsində nəzərdə tutulan şəxslər istisna olmaqla) ola bilər. Nümayəndənin məhkəmədə iş aparmaq səlahiyyəti lazımi qaydada rəsmiləşdirilməlidir. Bundan başqa sözügedən qanunla AR MPM-nin 70-ci maddəsi ləğv edilərək mülki prosesdə nümayəndə ola biləcək şəxslərin dairəsi dəqiqləşdirilmiş, bununla da qeyri-hüquqşünasların və ya "ozbaşına" nümayəndələrin, eləcə də vəkil adından qanunsuz istifadə edən hüquqşünasların uzun müddətli qanunsuz fəaliyyətlərinə son qoyulmuşdur. Sözügedən ciddi və əhəmiyyətli dəyişiklik vəkillər ordusu, hüquq camesi və cəmiyyət tərəfindən alqışlansa da, etiraz edənlər də olmuşdu. Buna görə

Vəkillər Kollegiyasının yeni rəhbərliyi ertirazçılara müraciət edərək onları qanunla nəzərdə tutulmuş qaydada vəkil olmağa dəvət etmiş, yüzlərlə hüquqşünas bu təklifdən bəhrələnərək Vəkillər Kollegiyasına üzv qəbul olmuşlar. “Özbaşına” nümayəndəliyin ləğv edilməsində, eləcə də vəkil adından qanunsuz istifadəyə qarşı mübarizə tədbirlərinin təşkili prosesində hələ sədr seçilmədən də fəal iştirak edən, vəkilliyin nüfuzunun özünə qaytarılması üçün mümkün olanı edən Anar Bağırov sözügedən konfransdan sonra bu sahədə olan problemlərin köklü həlli üçün hər şeyi etdi. Hazırda əminliklə deyə bilərik ki, vəkil adından qanunsuz istifadədən və “özbaşına” nümayəndəlikdən tam xilas olmuşuq.

Azərbaycan vəkilliyinin hazırkı inkişafından danışarkən “Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 22.02.2018-ci il tarixli Sərəncamı xüsusi qeyd edilməlidir. Ona görə ki, Vəkillər Kollegiyasının yeni rəhbərliyi adı çəkilən Sərəncamı öz fəaliyyətində rəhbər tutaraq əməli işlərə başlamışdır. Vəkillər Kollegiyası üzvlərinin sayının artırılması, vəkil olmaq istəyən şəxslərin öz arzularına tez və maneəsiz çatması üçün vəkilliyin tarixində ilk dəfə olaraq 2018-ci ildə 2 dəfə imtahan keçirilmiş və 600 nəfərdən çox hüquqşünas vəkil peşəsinə yiyələnmişdir. Rəqəmlərə diqqət edək: Vəkillər Kollegiyası təsis edilən ərəfədə - noyabr 2004-cü ildə Kollegiyanın 300 nəfərdən bir qədər artıq üzvü olmuş, Kollegiyanın son konfransı keçirilən ərəfədə - dekabr 2017-ci ildə isə üzvlərin sayı 934 nəfər olmuşdur. 2018-ci ilin sonuna isə Kollegiya üzvlərinin sayı 1500-dən artıq. Bu o deməkdir ki, Kollegiyanın əvvəlki rəhbərliyi dövründə 13 ildə (2004-2017-ci illərdə) 600-ə yaxın hüquqşünas kollegiyaya üzv ola bilmişdirsə, indiki rəhbərliyin dövründə cəmi 1 il ərzində eyni sayda hüquqşünas kollegiyaya üzv ola bilib. Bunu da vurğulamaq yerinə düşər ki, son dəfə keçirilən imtahanda da 100-dən artıq hüquqşünasın uğurlu nəticəsi var və tezliklə o sayda hüquqşünasın da kollegiyaya üzv olacağı və bu ilin sonuna üzvlərin sayının 2000 nəfərə çatdırılması gözlənilir.

Dövlətimizin başçısının 2019-cu il 3 aprel tarixli Fərmanında elektron məhkəmə ilə respublikanın bütün ərazisinin əhatə olunmasına və sistemin bütövlükdə ahəngdar işləməsinin təmin olunmasına yönəlmiş tapşırıqlar verilib. Artıq həmin tapşırıqların icrası üzrə zəruri tədbirlər görülür.

**– Ətraflı müsahibəyə görə minnətdarlığımızı bildiririk. İstərdik sonda cəmiyyətdə böyük maraq doğuran ədliyyə sahəsində innovasiyalar barədə də qısa məlumat verəsiniz.**

– Bu gün ədliyyənin bütün sahələrində elektron xidmətlərin, müasir texnologiyaların və innovasiyaların tətbiqinə xüsusi diqqət yetirilir. Qısa olaraq yalnız bəzi yenilikləri diqqətə çatdırmaq istərdim. Belə ki, səyyar xidmətlərə tələbatın artması ilə əlaqədar nazirlik tərəfindən xüsusi "Elektron Notariat çantası" hazırlanıb. Elektron notariat informasiya sisteminə və aidiyyəti məlumat banklarına birbaşa çıxışı olan bu "çanta" vasitəsilə istənilən yerdə hər hansı notariat hərəkətini aparmaq və sənədləri çap edib, təqdim etmək mümkündür.

"Elektron Ədliyyə köşkü" də maraqlı yenilikdir. Yalnız Azərbaycanda mövcud olan bu "köşk" vasitəsilə təxirəsalınmaz hallarda məsafədən notariat hərəkətləri aparmaq mümkündür. Bu "köşk"lər sərhəddə, hava və dəniz limanlarında, dəmir yolu vağzallarında quraşdırılır. Bu qurğular videoəlaqə vasitəsilə 24 saat ərzində notariat xidmətlərinin göstərilməsinə və müvafiq sənədlərin əldə edilməsinə imkan verir. Belə "köşk" hava limanında quraşdırılaraq artıq 4 aydır ki, istifadəyə verilib.

Həmçinin Azərbaycanın məhsulu olan "Mobil Notariat qovluğu"nu qeyd etmək istərdim. Müvafiq proqramı telefona yükləməklə vətəndaşın elektron notariat kabineti yaradılır və notariat fəaliyyəti ilə bağlı bütün məlumatların yüklənməsi təmin edilir.

Dövlətimizin başçısının cəza siyasətinin humanistləşdirilməsi barədə 2017-ci il 10 fevral tarixli Sərəncamına əsasən azadlığın məhdudlaşdırılması kimi yeni cəza növü müəyyən edilib və elektron nəzarət vasitələrinin tətbiqinə başlanılıb. Qısa müddətdə bu cihazların ölkədə istehsalı təşkil olunub və bir il ərzində 1500 məhkuma elektron qolbaqlar tətbiq edilib.

Sadaladığım bu innovasiyalar qısa müddət ərzində tətbiq edilməsinə baxmayaraq, artıq beynəlxalq marağa da səbəb olub. Elə bu ay Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə naziri geniş nümayəndə heyəti ilə Azərbaycana səfərə gəlib, bu innovasiyalarla tanış olub və ölkəsinin Azərbaycan təcrübəsindən bəhrələnməsinin əhəmiyyətini bildirib.

**– Cənab nazir, bizə vaxt ayırdığınıza və dəyərli fikirlərinizlə bölüşdüyünüzə görə bir daha dərin minnətdarlığımızı bildirir, bilavasitə insanlara, onların hüquqlarının etibarlı təminatına yönəlmiş islahatların həyata keçirilməsində sizə uğurlar arzulayırıq.**

## Çin Hüquq Cəmiyyətinin nümayəndələri Vəkillər Kollegiyasında olmuşlar



Çin Hüquq Cəmiyyətinin nümayəndə heyəti Vəkillər Kollegiyasının Rəyasət Heyətində olmuşdur. Nümayəndə heyətinin tərkibi Çin Xalq Respublikasının bəzi hüquqşünas-alimləri, məşhur vəkillərdən təşkil olunmuşdur.

Nümayəndə heyətini Vəkillər Kollegiyasının sədr müavinləri Aydın Axundov və Pərviz Ələkbərov salamlayaraq onlara Azərbaycanda vəkillik fəaliyyəti, son dövrlərdə vəkillik institutunun inkişafı və nüfuzunun artırılması istiqamətində aparılmış işlər, o cümlədən, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının beynəlxalq əməkdaşlığa verdiyi önəm barədə məlumat vermişlər.

Vəkillər Kollegiyasının dəvəti və göstərilən qonaqpərvərliyə görə təşəkkür edən qonaqlar iki ölkənin hüquq ictimaiyyəti arasında əməkdaşlıq əlaqələrinin perspektivləri, bu cür əlaqələrin yaradılmasının hər iki ölkənin hüquqşünasları baxımından əhəmiyyəti barədə danışmışlar.

Görüşdə çıxış edən Jiangxi əyalətinin Hüquq Cəmiyyətinin İcraçı müşaviri cənab Liang Qiyou Çinin hüquq sistemi və vəkillik institutu barədə ətraflı məlumat vermiş, Azərbaycanla qarşılıqlı əməkdaşlıqda maraqlı olduqlarını, Çin hökumətinin "Kəmər və yol" beynəlxalq təşəbbüsünə Azərbaycanın qoşulmasının təqdir edildiyini, cari ilin noyabr ayında qeyd olunan layihə ilə bağlı keçiriləcək konfransda Azərbaycan vəkillərinin iştirakından məmnun olacaqlarını bildirmişdir.

Qarşılıqlı fikir mübadiləsindən sonra qonaqlar Vəkillər Kollegiyası Rəyasət Heyətinin inzibati binası və iş fəaliyyəti ilə yaxından tanış olmuş, sonda qonaqlarla xatirə fotosu çəkilmişdir.

## Vəkillər Kollegiyasının sədri 2019 Peterburq Beynəlxalq Hüquq Forumunda iştirak etmişdir




14-18 may tarixlərində Rusiyanın Sankt-Peterburq şəhərində IX Beynəlxalq Hüquq Forumu keçirilmişdir. Forumda Azərbaycan Respublikası Vəkillər Kollegiyası adından Kollegiyanın sədri Anar Bağırov iştirak etmişdir. Azərbaycanın Respublikasının Vəkillər Kollegiyası hər il ənənəvi olaraq keçirilən foruma Rusiya Vəkillər Kollegiyalarının Federal Palatası tərəfindən dəvət olunmuşdur.

Tədbirdə Vəkillər Kollegiyasının sədrinin bir sıra ölkələrin vəkillər kollegiyalarının, habelə ixtisaslaşmış beynəlxalq təşkilatların rəhbərləri ilə qarşılıqlı görüşləri keçirilmiş, gələcək əməkdaşlığın perspektivləri barədə faydalı fikir mübadiləsi aparılmışdır.

Bundan əlavə, Vəkillər Kollegiyasının sədri Anar Bağırov forumun vəkillik peşəsi ilə bağlı sessiyasında "Uğur qonorarının taleyi" mövzusunda çıxış etmiş, bu sahədə Azərbaycan təcrübəsi barədə tədbir iştirakçılarına ətraflı məlumat vermiş, onların suallarını cavablandırmışdır. Qeyd olunan mövzu ilə bağlı həmçinin Rusiya Federasiyası Vəkillərinin Fedral Palatasının sədri Yuriy Pilipenko, İngiltərə və Uels Hüquq Cəmiyyətinin sədri xanım Bləklous Krinstin, Almaniya Vəkillərinin Federal Palatasının sədri Vessel Ulrix, Paris Vəkillər Palatasının sədri xanım Peyron Meri-Emi, Moldova Respublikası Vəkillər İttifaqının sədri Ploşnitsa Emanuil tərəfindən müvafiq ölkələrin təcrübəsinə dair məruzələrlə çıxış edilmişdir.

Qeyd olunan sessiyada Rusiya Federasiya ədliyyə naziri Aleksandr Konovalovun da olmuşdur. O, öz çıxışında Rusiyada peşəkar hüquqi yardımın göstərilməsi sahsəində islahatların həyata keçirilməsinin vaxtının gəlib çatdığını qeyd etmiş və bu təşəbbüsün reallaşacağına ümidlərini ifadə etmişdir.

Bundan başqa Forum çərçivəsində Sankt-Peterburq Vəkillər Palatasının təşkilatçılığı ilə qonaq ölkələrin vəkillər kollegiyalarının rəsmiləri üçün təntənəli şam ziyafəti verilmişdir. Tədbir "Vəkillik fəaliyyətinin əsas prinsipləri haqqında" Xartiyanın imzalanmasının 3-cü ildönümünə həsr olunmuşdur.

## Sumqayıtda Vəkillər Kollegiyasının ilk regional vəkil qurumunun açılışı olmuşdur




Azərbaycan Respublikası Vəkillər Kollegiyasının ilk regional qurumu olan – Sumqayıt Regional Vəkil Bürosunun inzibati binasının açılışı olmuşdur. Qeyd olunmalıdır ki, regional büronun açılışı Azərbaycan vəkilliyinin 100 illiyinə həsr olunmuş silsilə tədbirlərin davamı olaraq həyata keçirilməkdədir.

Qeyd edək ki, Sumqayıt şəhəri, 9-cu mikrorayon, Zülfü Hacıyev küçəsi, 71 ünvanındakı doqquzmərtəbəli yaşayış binasının birinci mərtəbəsində yerləşən həmin inzibati bina Azərbaycan Respublikası Prezidentinin 22 fevral 2018-ci il tarixli Sərəncamının icrası məqsədilə 19 sentyabr 2018-ci il tarixdə Vəkillər Kollegiyasının əvəzsiz istifadəsinə verilmişdir.

Vətəndaş məmnunluğunun, vətəndaşların və təşkilati-hüquqi formasından asılı olmayaraq regionda yerləşən bütün idarə və təşkilatların hüquqi yardıma sürətli çatımlılığın təmin edilməsi, habelə Sumqayıt Regional Vəkil Bürosunda normal iş şəratinin təşkil edilməsi məqsədilə inzibati binanın təmiri zəruri olduğundan ötən müddət ərzində həmin binanın təmiri həyata keçirilmişdir.

İnzibati binanın təmiri ilə yanaşı, Sumqayıt Regional Vəkil Bürosunun maddi-texniki təminatının yaxşılaşdırılması məqsədilə həmin vəkil qurumu mebel, kompüter və digər zəruri avadanlıqlarla təmin edilmişdir ki, bu işlərin görülməsi Azərbaycan Respublikasının dövlət büdcəsinin Ehtiyat Fondundan bu məqsədlər üçün Vəkillər Kollegiyasına ayrılmış vəsait hesabına təmin edilmişdir.



Təmir işlərinin bilavasitə dövlət vəsaiti hesabına aparıldığı nəzərə alınaraq bununla bağlı Azərbaycan Respublikasinin Şəhərsalma və Tikinti Məcəlləsinin, habelə tikinti-təmir sahəsini tənzimləyən digər hüquqi aktların tələblərinə uyğun olaraq inzibati bina üzrə görüləcək işlərin həcmi dəqiqləşdirilmiş və təmirlə əlaqədar ehtimal olunan qiymətlərin müəyyən edilməsi məqsədilə Vəkillər Kollegiyası tərəfindən müvafiq qaydada Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi Tikintidə Qiymətqoyma Mərkəzinə müraciət edilmişdir.

Tikintidə Qiymətqoyma Mərkəzinin həmin obyekt üzrə təqdim etdiyi hesabatlara əsasən inzibati binanın təmir işlərinin ƏDV daxil 58.991,53 manat təşkil etdiyi bildirilməsinə baxmayaraq, dövlət büdcəsindən ayrılmış vəsaitin təyinatı üzrə qənaətlə və daha da səmərəli şəkildə istifadəsinin təmin edilməsi məqsədilə işlərə ümumilikdə ƏDV daxil 30.444 manat vəsait xərclənmişdir. Eyni zamanda təmir işləri çərçivəsində inzibati binanın infrastrukturunun təchiz edilməsi, habelə onun mebel və kompüter avadanlıqları ilə təmin edilməsi üçün ƏDV daxil 25.924 manat vəsait xərclənmişdir.

manat vəsait xərclənmişdir. Eyni zamanda təmir işləri çərçivəsində inzibati binanın infrastrukturunun təchiz edilməsi, habelə onun mebel və kompüter avadanlıqları ilə təmin edilməsi üçün ƏDV daxil 25.924 manat vəsait xərclənmişdir.

Hazırda sahəsi 171,6 kv.m olan həmin inzibati binada konfrans zalı, konfidensial otaq, qəbul masası, vəkillərin fəaliyyəti üçün geniş sahəyə malik iş otağı olmaqla, növbətçi vəkil masası, qonaq vəkil masası, mətbəx, sanitar qovşaqlar və digər şəraitlə təmin edilmiş, habelə gələcəkdə Vəkillər Kollegiyasının Tədris və Hüquqi Yardım Mərkəzi ilə əlaqəli şəkildə region vəkilləri üçün distant təlimlərin keçirilməsi məqsədilə telekonfrans sisteminin qurulması da nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 22 fevral 2018-ci il tarixli Sərəncamına uyğun olaraq Sumqayıt Apellyasiya Məhkəməsinin yurisdiksiyasına daxil olan Repsublikanın 14 rayon və şəhərləri üzrə bütün vətəndaşlar, habelə təşkilati hüquqi formasından asılı olmayaraq regionda yerləşən bütün idarə və təşkilatlar Sumqayıt Regional Vəkil Bürosunun hüquqi yardım üzrə xidmətlərindən yararlanmaq imkanına malikdirlər.



Qeyd olunmalıdır ki, Sumqayıt Regional Vəkil Bürosunun tənətənəli açılış mərasimi ilə bağlı Vəkillər Kollegiyasının rəhbərliyi əvvəlcə ümummilli lider Heydər Əliyevin Sumqayıt şəhərindəki abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoymuş, dahi liderin əziz xatirəsi dərin ehtiramla yad edilmişdir.

Sonra region vəkillərinin, Milli Məclis deputatlarının, yerli icra hakimiyyəti, habelə məhkəmə hakimiyyəti, hüquq-mühafizə orqanlarının nümayəndələri və KİV nümayəndələrinin iştirakı ilə Sumqayıt Regional Vəkil Bürosunun inzibati binasının təntənəli açılışı keçirilmişdir.

Təntənəli açılış mərasiminin davamı daha sonra Sumqayıt Plaza Hotel mehmanxanasında davam etdirilmişdir.

Azərbaycan Respublikasının Vəkillər Kollegiyası sədri cənab Anar Bağırov giriş nitqi ilə tədbirə təşrif buyurmuş qonaqları salamlayaraq regional vəkil qurumunun fəaliyyətə başlamasını istər vəkillik təsisatının, istərsə də Sumqayıt şəhərinin tarixində ilk olduğunu qeyd etdi və bu tarixi günün məhz "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 22 fevral 2018-ci il tarixli Sərəncamının icrası çərçivəsində baş tutduğunu tədbir iştirakçılarının nəzərinə çatdırdı.

Açılış mərasimində Sumqayıt Apellyasiya Məhkəməsinin sədri Səadət xanım Bəktaşi, Sumqayıt şəhər prokuroru Sərdar İmanov, Əməkdar hüquqşünas, Vəkillər Kollegiyasının Ağsaqqallar Şurasının sədri İkram Kərimov, Sumqayıt Regional Vəkil Bürosunun rəhbəri Anar Qasımlı və Sumqayıt şəhərində fəaliyyət göstərən vəkil Leyla Bədəlova tərəfindən çıxışlar edilmişdir.

Qeyd olunmalıdır ki, açılış mərasimindən sonra Respublikanın şimal regionunda fəaliyyət göstərən Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvləri üçün "Vəkillik etikası: müasir çağırışlar" başlığı altında elmi-praktik seminar keçirilimişdir. 100-ə yaxın vəkilin qatıldığı tədbir Azərbaycan Respublikası Vəkillər Kollegiyası və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) "Cənubi Qafqazda hüquq sahəsində Avropa standartlarına yaxınlaşma" Regional Proqramının birgə təşkilatçılığı ilə baş tutmuşdur. Qeyd olunmalıdır ki, tədbirdə Sumqayıt, Quba, Qusar, Abşeron, Siyəzən, Xızı, Xaçmaz və Şabran rayonlarında fəaliyyət göstərən vəkillər iştirak edirlər.

Seminarı giriş sözü ilə açan Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Anar Bağırov ilk əvvəl "Məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 03.04.2019-cu il tarixli Fərmanı xüsusilə vəkillərin hakimlərlə və cinayət təqibini həyata keçirən orqanların əməkdaşları ilə qeyri-prosessual münasibətlərə yol verməsinin qarşısının alınması, habelə "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 22.02.2018-ci il

tarixli Sərəncamın tarixi əhəmiyyəti, vəkilliyin inkişaf etdirilməsində, vətəndaşların keyfiyyətli hüquqi yardıma çatımlılığında rolu barədə öz fikirlərini bölüşmüş. Həmçinin Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) ilə Vəkillər Kollegiyası arasında yaranmış sıx əməkdaşlıq əlaqələrinin əhəmiyyəti, GİZ tərəfindən həyata keçirilən tədbirlərin, seminarların vəkillər üçün faydası, o cümlədən GİZ-in Azərbaycanda həyata keçirilən məhkəmə-hüquq islahatlarına verdiyi dəstəyin önəmini vurğulamış, son dönəmlər vəkillik etikası kimi mövzuların vəkillər və onların vətəndaşlar, məhkəmə, hüquq-mühafizə orqanları ilə təması baxımından üçün aktuallığı barədə fikirlərini bölüşmüşdür.

İnteraktiv şəkildə keçirilən seminarda məruzəçi qismində Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) peşəkar eksperti, Almaniyanın Hessen vilayətinin Vəkillər Palatasının üzvü, doktor Rudolf Lauda iştirak etmişdir. Doktor Rudolf Laudanın təqdimat çərçivəsində mühazirəsi dinlənilmiş, Avropada vəkillərin özünüidarəçiliyi və etikası, vəkilin müstəqilliyi, vəkil sirri, maraqların toqquşmasından qaçınılması, hüquq peşəsinin nüfuzu və digər mövzular ətrafında müzakirələr aparılmış, seminar iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

Seminar çərçivəsində həmçinin Vəkillər Kollegiyasının Rəyasət Heyətinin üzvü Muxtar Mustafayevin "Vəkillərin öz həmkarları ilə münasibətləri və vəkil sirri" və Vəkillərin İntizam Komissiyasının sədri Şahmar Məmmədovun "Vəkillərin məhkəmə və digər orqanlar ilə münasibətləri" mövzusunda mühazirələri dinlənilmişdir.

## Vəkillərimiz artıq Birləşmiş Krallığın yurisdiksiyasında vəkilliyə qəbul oluna biləcəklər




Azərbaycan Respublikasının Vəkillər Kollegiyası ilə Birləşmiş Krallığın vəkillər birliyi olan Hüquq Cəmiyyəti arasında əldə olunmuş razılığa əsasən, artıq Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının üzvləri Böyük Britaniyada vəkilliyə qəbul üzrə müvafiq imtahanı verməklə orada vəkilliyə qəbul oluna və İngiltərə və Uels ərazisində vəkillik fəaliyyəti ilə məşğul ola bilər.

Birləşmiş Krallıqda vəkilliyə qəbul olmaq üçün azərbaycanlı hüquqşünaslar aşağıdakı meyarlara cavab verməlidirlər:

- Namizəd Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının üzvü olmalıdır;
- Namizəd Azərbaycan Respublikasının bütün ərazisində vəkillik fəaliyyəti ilə məşğul olmaq hüququna malik olmalıdır;
- Vəkil olaraq qəbul edilmək üçün möhkəm xarakterə və yüksək keyfiyyətlərə sahib olmalıdır;
- İxtisaslaşmış Vəkillərin Transfer Sistemi (QLTS - keçid) adlı imtahanları uğurla keçməlidir.

Qeyd olunmalıdır ki, Britaniyada QLTS imtahanlarını ixtisaslaşmış qurum olan Vəkilliyin Tənzimlənməsi Təşkilatı (SRA) keçirməkdədir. Təşkilatın saytı ilə buradan tanış olmaq mümkündür.

Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının qeyd olunan yurisdiksiyada tanınması faktı öz təsdiqini Vəkilliyin Tənzimlənməsi Təşkilatının (SRA) rəsmi internet səhifəsində tapmışdır.

## "Məhkəmə-hüquq islahatlarına vəkil baxışı" mövzusunda konfrans keçirilmişdir



"Hilton" mehmanxanasında Azərbaycan Respublikasının 1-ci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və Azərbaycan Respublikası Vəkillər Kollegiyasının təşkilatçılığı ilə "Məhkəmə-hüquq islahatlarına vəkil baxışı" mövzusunda konfrans keçirilmişdir. Konfransda 300-dək vəkil, Milli Məclisin deputatları, hüquqşünas-alimlər, hakimlər, vəkillər, xarici ölkələrin səfirliklərinin, o cümlədən, müxtəlif dövlət və qeyri-hökümət təşkilatlarının nümayəndələri iştirak etmiş, tədbirin işıqlandırılması üçün kütləvi informasiya vasitələri dəvət edilmişdir.

Konfransda açılış nitqi ilə çıxış edən Vəkillər Kollegiyasının sədri Anar Bağırov "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 03.04.2019-cu il tarixli Fərmanının əhəmiyyəti, Fərmanda qeyd olunan göstəriş və tövsiyələrin icrası ilə bağlı Vəkillər Kollegiyası tərəfindən həyata keçirilmiş tədbirlər və qarşıda duran vəzifələr barədə tədbir iştirakçılarına məlumat vermişdir.

Daha sonra Azərbaycan Respublikasının birinci vitse-prezidentinin köməkçisi Gündüz Kərimov çıxış edərək qeyd olunan Fərmanın Vəkillər Kollegiyası üçün əhəmiyyəti, vəkillərin məhkəmə-hüquq islahatlarındakı rolu, islahatların həyata keçirilməsi istiqamətində görülməli tədbirlərin zərurəti barədə məlumat vermişdir.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Hüquqi xidmətlərin göstərilməsi məsələləri sektorunun müdiri Vüsal İsayev qeyd etdi ki, Azərbaycan Respublikası Prezidentinin məlum Fərmanının ədalət mühakiməsi üçün verdiyi töhfə, son dövrlər ölkədə vəkillik institutunun inkişafı və nüfuzunun artırılması istiqamətində görülən işlər, Bakı şəhəri və regionlarda əhalinin keyfiyyətli hüquqi yardıma çatımlılığının təmin olunması üzrə aparılan islahatlar barədə danışmışdır.

Konfransda Azərbaycan Respublikası Baş prokurorunun müavini, Məhkəmə-Hüquq Şurasının üzvü Namiq Əsgərov çıxış edərək bildirdi ki, vəkil-prokuror münasibətləri, son dövrlərdə bu münasibətlətin inkişafı və ədalət mühakiməsinin həyata keçirilməsi baxımından əhəmiyyəti barədə fikirlərini bölüşmüşdür.




Tədbirin növbəti hissəsi Vəkillər Kollegiyasının sədri Anar Bağırovun "Vəkilliyin məhkəmə-hüquq islahatlarında yeri və rolu" barədə çıxış etmişdir. Kollegiyanın sədri bildirmişdir ki, Vəkillər Kollegiyası tərəfindən son dövr ərzində vəkilliyin inkişafı və nüfuzunun artırılması, maddi-texniki təminatının, o cümlədən, vəkillər tərəfindən vətəndaşlara göstərilən hüquqi yardımın keyfiyyətinin artırılması istiqamətində bir çox tədbirlər həyata keçirilmişdir. Buna baxmayaraq, Vəkillər Kollegiyasının fəaliyyəti, maliyyə müstəqilliyi, maddi-texniki təminatı, eləcə də regionlarda vəkillərin sayı baxımından müəyyən problemlər mövcuddur. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin qeyd olunan Fərmanının müvafiq göstəriş və tövsiyələri, xüsusilə də dövlət hesabına hüquqi yardıma görə vəkilə ödənilməli olan vəsaitin Vəkillər Kollegiyasına verilməsi məsələsi xüsusi əhəmiyyət kəsb etməkdədir.

Daha sonra Məhkəmə-Hüquq Şurası aparatının rəhbəri Cavid Hüseynov "Hakim-vəkil münasibətlərinin deontoloji aspektləri" mövzusunda çıxış edərək qeyd etmişdir ki, məhkəmə-hüquq islahatlarında hakim-vəkil münasibətlərinin xüsusi rolu vardır və bu baxımdan qeyri-prosessual

münasibətlərin yolverilməzliyi əhəmiyyət kəsb etməkdədir. O bildirmişdir ki, “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 03.04.2019-cu il tarixli Fərmanında bu barədə müddəaya yer verilməsi də dövlət tərəfindən bu sahəyə verilən önəmin bariz nümunəsidir.

Konfransda həmçinin Vəkillər Kollegiyasının Ağsaqqallar Şurasının sədri, Əməkdar hüquqşünas İkram Kərimov məlum Fərmanın təhlili ilə bağlı maraqlı çıxış etmişdir.

Konfransın ikinci hissəsində Vəkillərin İntizam Komissiyasının sədri, Vəkillər Kollegiyasının Hüquqi Yardım və Tədris Mərkəzinin rəhbəri Şahmar Məmmədovun “Vəkillərin etik davranışı və qeyri-prosessual münasibətlərə qarşı preventiv tədbirlər” mövzusunda mühazirəsi dinlənilmişdir.

Bundan başqa, tədbirdə Vəkillərin İntizam Komissiyasının sədr müavini İlhamə Həsənova Azərbaycan Respublikası Prezidentinin 03.04.2019-cu il tarixli Fərmanı üzrə Vəkillər Kollegiyası tərəfindən formalaşdırılmış cinayət hüququ, Vəkillər Kollegiyası Rəyasət Heyətinin üzvü Muxtar Mustafayev isə mülki hüquq üzrə İşçi Qrupun məruzəsi ilə çıxış etmişlər.

Konfrans müzakirələr ilə davam etmiş, tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

## Masallı “ASAN”da fəaliyyət göstərən hüquqi yardım mərkəzi ilə tanış olunmuşdur



İyunun 3-də Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycan nümayəndəliyi tərəfindən Azərbaycan Respublikasının Vəkillər Kollegiyası ilə birgə icra olunan və ABŞ Dövlət Departamentinin Narkotiklər və Hüquq Mühafizəyə dair Beynəlxalq Məsələlər üzrə Bürosunun (İNL) maliyyə dəstəyi ilə həyata keçirilən “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasına dəstək məqsədli elektron-tədris modulları-faza II” layihəsi çərçivəsində təşkilatların rəsmilərinin Masallı ASAN Xidmət Mərkəzində təşkil olunmuş Hüquqi Yardım Mərkəzinə səfəri baş tutmuşdur.

Qeyd olunan layihə əhalinin peşəkar hüquqi xidmətlərə çatımlılığını artırmaqla xüsusilə aztəminatlı təbəqənin ödənişsiz şəkildə kompleks hüquqi yardım xidmətlərindən yararlanma imkanlarının təmin edilməsi məqsədini daşıyır. Layihə çərçivəsində əhaliyə məhkəmə və digər dövlət orqanlarında təmsilçilik, hüquqi sənədlərin tərtibi, şifahi hüquqi məsləhətlərin verilməsi kimi xidmətlər göstərilir. Xidmətlərin göstərilməsi ilə bağlı vətəndaşların müxtəlif orqanlarda ödənilən dövlət rüsumları ilə bağlı xərcləri qarşılanmaqdadır.

Analoji hüquqi yardım mərkəzləri Bərdə, İmişli və Qəbələ rayonlarında da təşkil olunmuşdur. Hüquqi xidmətlər hər bir mərkəzdə ən azı bir Vəkillər Kollegiyasının üzv olmaqla, köməkçi hüquqşünaslar tərəfindən göstərilməkdədir.

Qeyd olunmalıdır ki, cari ilin fevral ayında fəaliyyətə başlamış Masallı Hüquqi Yardım Mərkəzi tərəfindən əsasən əmlak, ailə, əmək, vərəsəlik, cinayət, inzibati işlər üzrə 246 nəfərə hüquqi yardım göstərilmişdir. Onlardan 136 iş məhkəmə təmsilçiliyi, məhkəmələrə iddia ərizələrinin hazırlanması və s. bu kimi işlər ilə bağlıdır.

Səfərdə ABŞ-nin Azərbaycandakı Səfirliyinin siyasi işlər üzrə müşaviri Uilyam Soley, BMqT-nin Azərbaycan nümayəndəliyinin rəhbəri Vladimir Qyorqyiev, Vəkillər Kollegiyasının Rəyasət Heyətinin Aparatatının rəhbəri Fərhad Nəcəfov iştirak etmişlər.

## Vəkillər arasında şahmat turnirinə yekun vurulmuşdur



İyunun 15-də Vəkillər Kollegiyasının "Vəkil klubu" tərəfindən Sumqayıt Şahmat Məktəbində "15 iyun - milli qurtuluş günü" və Azərbaycanda vəkilliyinin 100 illiyi münasibəti ilə "I Vəkil Şahmat" yarışması keçirilmişdir.

Yarışmanın məqsədi ölkədə şahmat idman növünün inkişafına dəstək olmaq, vəkillərin şahmat idman növünə olan bacarıqlarını nümayiş etdirməsinə şərait yaratmaq və onların bacarıqlarını qiymətləndirməsindən ibarət idi.

Respublika üzrə yarışa 28 vəkil və vəkilliyə namizəd qatılmışdır.

Bir gün ərzində keçən yarışmanın nəticəsində "Əkrəm Həsənov və partnyorları" vəkil bürosunun müdiri, vəkil Əkrəm Həsənov 1-ci, "Femida" Vəkil Bürosunun müdiri, vəkil Pənah Məmmədov, Bakı şəhəri 8 saylı Vəkil Bürosunun vəkili Aydın Ələkbərov, Bakı şəhəri 6 saylı Vəkil Bürosunun vəkili Rahim Alışov, Bakı şəhəri 8 saylı Vəkil Bürosunun vəkili Namiq Mustafayev, "Femida" Vəkil Bürosunun vəkili Elşən Səfərov 2-ci, Gəncə şəhər Vəkil Bürosunun müdiri, vəkil Camal Əliyev 3-cü yeri tutmuşlar. Qeyd olunmalıdır ki, yarışma Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının sədri cənab Anar Bağırov, Dağıstan Respublikası Vəkillər Kollegiyasının sədri cənab Akif Beybutov, Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının sədr müavinləri Aydın Axundov, Pərviz Ələkbərov, Rəyasət Heyətinin üzvü cənab Muxtar Mustafayev tərəfindən izlənilmişdir. Vəkillər Kollegiyasının Rəyasət Heyətinin qərarına əsasən, yarışın mükafat fondu 900 manat təşkil edir. 1-ci yer tutana 400 manat, 2-ci yer tutana 300 manat və 3-cü yer tutana 200 manat mükafat və fəxri diplomlar təqdim olunacaqdır.

## Azərbaycan Milli Elmlər Akademiyasında vəkilliyə namizədlərin təntənəli andiçmə mərasimi keçirilmişdir



Vəkillər Kollegiyası Rəyasət Heyətinin üzvləri, vəkil qurumlarının rəhbərləri, millət vəkilləri, xarici ölkələrin səfirlərinin nümayəndələri, yerli və beynəlxalq təşkilatların, həmçinin KİV nümayəndələrinin iştirakı ilə vəkilliyə namizədlərin təntənəli andiçmə mərasimi keçirilib.

Tədbir Azərbaycan Respublikasının Vəkillər Kollegiyası və AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun birgə təşkilatçılığı ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında baş tutmuşdur.

AMEA Hüquq və İnsan Haqları İnstitutunun direktoru Aytən Mustafazadə tədbirdə açılış nitqi ilə çıxış edərək insan hüquqlarının müdafiəsinin əhəmiyyəti, bu istiqamətdə aparılan islahatlar barədə danışmış, bu baxımdan aztəminatlı əhaliyə ödənişsiz hüquqi yardım göstərilməsinin zəruriliyi, Vəkillər Kollegiyası tərəfindən bu sahədə keçirilmiş tədbirlərin önəmini vurğulamışdır. O qeyd etmişdir ki, AMEA Hüquq və İnsan Hüquqları İnstitutu və Vəkillər Kollegiyası arasında bağlanacaq anlaşma memorandumuna əsasən gələcək əməkdaşlığın əsası qoyulacaq, ödənişsiz hüquqi yardım, o cümlədən vəkillərin davamlı tədrisi ilə bağlı birgə tədbirlər keçiriləcəkdir.

Daha sonra Vəkillər Kollegiyasının sədri Anar Bağırov çıxış edərək bildirmişdir ki, bugün – 18 İyun Azərbaycanda Milli İnsan Hüquqları günü kimi qeyd olunur, Prezident İlham Əliyevin 2007-ci il 17 iyun tarixli Fərmanı ilə ulu öndər Heydər Əliyevin 1998-ci ildə ölkəmizdə ilk "İnsan hüquqları müdafiəsinə dair Dövlət Proqramı"nın təsdiq edildiyi və insan hüquqlarının təmin olunmasının dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən olunduğu nəzərə alınaraq



Azərbaycanda Milli İnsan Hüquqları günü təsis edilmişdir, Konstitusiyada əksini tapmış bu strateji məqsəd ilk növbədə hüquq islahatları və insan hüquqlarının qorunması prinsipinin real həyatda tətbiqini zəruri etmişdir. Bu səbəbdən, vəkilliyə namizədlərin andiçmə mərasimi və Vəkillər Kollegiyası ilə AMEA Hüquq və İnsan Haqları İnstitutu arasında anlaşma memorandumunun imzalanmasının məhz bu günə təsadüf etməsi çox əlamətdar hadisədir.

Sonra Azərbaycan Milli Elmlər Akademiyası Hüquq və İnsan Haqları İnstitutu və Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyəti arasında birgə əməkdaşlıq haqqında "Anlaşma Memorandumu" imzalanmışdır.

Daha sonra, vəkilliyə namizədlər çıxış etmiş, vəkil peşəsinə yiyələndikləri üçün məmnun olduqlarını, vəkilliyə qəbul üzrə ixtisas imtahanlarının intensiv olaraq keçirilməsi üçün Vəkillər Kollegiyasının Rəyasət Heyətinə minnətdar olduqlarını bildirmişlər.

Sonra vəkilliyə qəbul üzrə ixtisas imtahanlarından müvəffəqiyyətlə keçmiş və icbari təlimi başa vurmuş namizədlərin andiçmə mərasimi keçirilmiş, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmiş, vəkilliyə namizədlər Azərbaycan Respublikasının Dövlət Bayrağı önündə and içmiş, onlara vəsiqələr təqdim edilmişdir.

## Vəkillər Kollegiyasının rəhbərliyi beynəlxalq konfransda iştirak etmişdir

İyun ayının 21-də Rusiyanın Kalininqrad şəhərində "Baltikyanı əməkdaşlıq təşəbbüsü" çərçivəsində vəkillik fəaliyyətinin VII Beynəlxalq Praktiki Konfransı keçirilmişdir.

"Vəkillik peşəsinin müasir çağırışları və onların həlli yolları" mövzusuna həsr olunmuş konfransda Azərbaycan Respublikasının Vəkillər Kollegiyasını Kollegiyanın sədri Anar Bağırov, sədr müavini Aydın Axundov, Rəyasət Heyətinin üzvü Muxtar Mustafayev, Vəkillərin İntizam Komissiyasının sədri Şahmar Məmmədov, Xırdalan şəhər Vəkil Bürosunun rəhbəri Ayxan Rüstəmzadə təmsil etmişdir.

Konfransda Rusiya Vəkillərinin Federal Palatasının prezidenti Y.Pilipenko açılış nitqi ilə çıxış edərək qonaqları salamlamış, daha sonra Rusiyanın müxtəlif regionlarının vəkillər palatalarının, o cümlədən bir çox ölkələrin vəkillər kollegiyalarının sədrlərinin mövzu ilə bağlı çıxışları dinlənilmiş, tədbir iştirakçılarını maraqlandıran məsələlərlə bağlı müzakirələr və fikir mübadiləsi aparılmışdır.

Tədbirdə Vəkillər Kollegiyasının sədri Anar Bağırov çıxış edərək Azərbaycanda vəkillik institutunun inkişafı və nüfuzunun artırılması istiqamətində həyata keçirilən tədbirlər, ölkədə vəkillərin sayının artırılması üçün görülən işlər, o cümlədən, Vəkillər Kollegiyasının maliyyə müstəqilliyi ilə bağlı konfrans iştirakçılarına ətraflı məlumat vermiş, onları maraqlandıran suallara cavab vermişdir.

# Vəkillər Kollegiyası ilə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi arasında anlaşma memorandumu imzalanmışdır



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məhkəmə-hüquq islahatları, xüsusilə "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 03.04.2019-ci il tarixli Prezident Fərmanından irəli gələn tövsiyə və tapşırıqların icrası ölkəmizdə qanunçuluğun və hüquq qaydasının daha da möhkəmləndirilməsi prosesinə böyük töhfə vermişdir. Sözügedən məqsədə nail olunması üçün vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi, mövcud sahədə hüquqi maarifləndirmə tədbirlərinin genişləndirilməsi, peşəkar kadr potensialı ilə seçilən Respublikanın hüquq mühafizə orqanlarının, habelə insan hüquqlarının peşəkar müdafiəsi sahəsində ixtisaslaşmış təşkilatların qarşılıqlı səmərəli əməkdaşlıq şəraitində birgə fəaliyyət göstərməsi vacib şərtlərdəndir. Müasir dövrün çağırışlarına uyğun hüquqi islahatların davam etdirilməsi nəticə etibarı ilə hüquqi dövlət prinsiplərinin inkişaf etdirilməsi, əhalinin dövlət hakimiyyəti və hüquq mühafizə orqanlarına etimadının yüksəldilməsi, vətəndaşların dönmədən qanuna riayət etmə ruhunda tərbiyə edilməsinə hesablanmışdır.

Qeyd edilən zərurətdən irəli gələrək, Vəkillər Kollegiyanın digər dövlət qurumları ilə qarşılıqlı əməkdaşlığının qurulması çərçivəsində cari ilin iyun ayının 28-də Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında hər iki qurumun rəhbər vəzifəli şəxslərinin iştirakı ilə qurumlar arasında korrupsiya ilə mübarizə sahəsində qarşılıqlı əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanması mərasimi baş tutmuşdur.

Tədbiri giriş sözü ilə açan Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev əməkdaşlıq memorandumunun əhəmiyyətinə toxunaraq, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə müasir dövrün tələblərinə cavab verən,




cəmiyyətdə yüksək nüfuza malik məhkəmə-hüquq sisteminin formalaşdırılması, qanunçuluq və hüquq qaydasının möhkəmlənməsinə istiqamətlənən islahatların ölkədə həyata keçirilən korrupsiyaya qarşı mübarizə tədbirləri ilə dəstəkləndiyini bildirmiş, qeyd olunan sahədə dövlət orqanları, o cümlədən hüquq mühafizə orqanlarının bir biri ilə, insan hüquqlarının peşəkar müdafiəsi sahəsində ixtisaslaşmış təşkilatlarla, həmçinin vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın genişlənməkdə olduğunu qeyd etmişdir. K.Əliyev həmçinin prokurorluq əməkdaşlarının Vəkillər Kollegiyasının üzvləri ilə münasibətlərinə toxunaraq mövcud sahədə qeyri-prosessual münasibətlərin yolverilməzliyini bildirmişdir. Baş prokurorun müavini Vəkillər Kollegiyasının vəkillərin xidməti fəaliyyəti ilə əlaqədar onlara məlum olan korrupsiya hüquqpozmaları barədə məlumatlarının təxirəsalınmadan prokurorluq orqanlarına verməsinə dair razılığın memoranduma daxil edilməsini cinayətkarlığın bu təhlükəli təzahürünə qarşı mübarizədə önəmli töhfə olacağını qeyd etmişdir.

Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının sədri Anar Bağırov çıxış edərək bildirmişdir ki, Azərbaycanda vəkillik sahəsində aparılan mütərəqqi islahatlar nəticəsində ölkədə vəkillərin sayı əhəmiyyətli dərədəcə artmış, hazırda Bakı və Azərbaycanın regionlarında 1500 nəfərdən çox vəkil xidməti fəaliyyət göstərir. Vəkillər Kollegiyasının öz işini müasir dövrün

tələblərinə uyğun qurduğunu tədbir iştirakçılarının diqqətinə çatdıran Vəkillər Kollegiyasının sədri dövlətin vəkilliyin inkişafına böyük diqqət ayırdığını bildirmişdir. Belə ki, Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 22.02.2018-ci il tarixli Sərəncamında Vəkillər Kollegiyasına fəaliyyətində şəffaflığın artırılması tövsiyə edilmişdir. Eyni zamanda Anar Bağırov, "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Prezidentinin 03.04.2019-cu il tarixli Fərmanında Vəkillər Kollegiyasına verilmiş tövsiyələr çərçivəsində bu Memorandumun imzalanmasının, hər iki qurum arasında səmərəli əməkdaşlıq münasibətlərinin qurulmasının mühüm əhəmiyyət kəsb etdiyini xüsusi vurğulamışdır. Qeyd olunmuşdur ki, əməkdaşlıq münasibətlərinin qurulmasının başlıca qayəsini vətəndaşlarımızın hüquq və azadlıqlarının səmərəli müdafiəsi təşkil edir ki, Memorandumun imzalanması son nəticədə məhz bu məqsədə xidmət edir.

## Vəkillər Kollegiyasının rəhbərliyi Polşada beynəlxalq konfransda iştirak etmişdir

İyulun 4-7-də Polşanın Qdansk şəhərində Vəkillərin Avropa Assosiasiyasının və Qdansk Regional Vəkillər Kollegiyasınn təşkilatçılığı ilə "Fərdi məlumatların mühafizəsi: nəzəriyyə və təcrübə" başlığı altında beynəlxalq konfrans keçirilmişdir.

Konfransın məqsədini eyni zamanda Şərqi, Mərkəzi Avropa və digər ölkələrin vəkilləri arasında əməkdaşlıq münasibətlərinin qurulması və bu münasibətlərin inkişaf etdirilməsi təşkil edir.



Tədbirdə Vəkillərin Avropa Assosiasiyasının prezidenti Maria Slazak, Kalininqrad Vəkillər Kollegiyasının sədr müavini Aleksey Sozvaryev, Özbəkistan Vəkillər Kollegiyasının sədr müavini Şuxrat Sadıxov, Qazaxıstan Vəkillər Kollegiyasından Segey Sizintsev, Belarus Vəkillər Kollegiyasının sədri Viktor Çayçits və digər ölkələrin vəkillər assosiasiyalarının rəsmi şəxsləri iştirak etmişlər.

Konfrans ərzində Rusiya, Gürcüstan, Ukrayna, Moldova, Polşa, İspaniya, Belarus, Qazaxıstan, Özbəkistanda fərdi məlumatların mühafizəsinin qanunvericilik rejimləri barədə ətraflı təqdimatlar dinlənilmişdir.

Qeyd olunmalıdır ki, ölkəmiz tədbirdə Azərbaycan Respublikasının Vəkillərin Kollegiyasının sədri Anar Bağırov və sədr müavini Pərviz Ələkbərov tərəfindən təmsil olunmuşdur. Vəkillər Kollegiyasının sədri Anar Bağırov "Azərbaycanda fərdi məlumatların mühafizəsinin qanunvericilik təminatları" mövzusunda təqdimatla çıxış etmişdir.

# İnsan Hüquqları üzrə Avropa komissarı Vəkillər Kollegiyasını ziyarət etmişdir



Ölkəmizdə rəsmi səfərdə olan Avropa Şurasının İnsan Hüquqları üzrə komissarı Dunya Miyatoviçin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Respublikası Vəkillər Kollegiyasının rəhbərliyi və bir sıra vəkillərlə ilə görüşüb.

Qonağı salamlayan Vəkillər Kollegiyasının sədri Anar Bağırov son dövrlər Avropa Şurası ilə Vəkillər Kollegiyası arasında qurulmuş səmərəli əməkdaşlıq münasibətləri, bu münasibətlərin daim inkişaf etdirildiyini və Vəkillər Kollegiyası üçün əhəmiyyətli olduğunu vurğulamışdır.

İnsan hüquqları üzrə Avropa komissarı kimi ilk dəfə ölkəmizə səfərindən məmnunluğunu ifadə edən qonaq Vəkillər Kollegiyasının rəhbərliyi ilə görüşün onun üçün xüsusi əhəmiyyət kəsb etdiyini, vəkilliyə qəbul, vəkillərin intizam icraatı, o cümlədən, vəkillərin gündəlik fəaliyyətlərində qarşılaşdıqları çətinliklər barədə ətraflı məlumat almaq istəyini bildirib.

Öz növbəsində Anar Bağırov vəkilliyə qəbulla bağlı ixtisas imtahanları, imtahanların gedişatı və aparılma proseduru, vəkillərin sayının artırılması istiqamətində görülən işlər, eləcə də vəkillərin intizam icraatı, vəkillərin etik davranış qaydalarının Avropa standartları ilə uzlaşması, habelə maraq kəsb edən digər məsələlər barədə Komissara məlumat vermiş, intizam icraatları ilə bağlı statistikanı qonağa təqdim etmişdir.



Görüşdə həmçinin vəkillərin peşə fəaliyyətləri zamanı qarşılaşdıqları problemlər, onların prosessual hüquq və səlahiyyətləri, gələcəkdə vəkil peşəsinin inkişaf perspektivləri, xüsusilə vəkillərin prosessual hüquqlarının genişləndirilməsi, vəkilliyə qəbul prosesinin daha da sadələşdirilməsi və s. əhəmiyyət kəsb edən məsələlər barədə qarşılıqlı fikir mübadiləsi aparılmışdır. Bundan başqa, ölkəmizin Avropa Şurasının HELP proqramının təşviqi üzrə Avropa Şurasına 47 üzv ölkə arasında 10-cu yerdə olması, gələcəkdə HELP platforması üzrə vəkillərin tədrisinin davam etdirilməsinin vacibliyi qeyd olunmuşdur.

İnsan Hüquqları üzrə Avropa komissarı xanım Miyatoviç görüşdən məmnunluğunu bildirmiş, qeyd olunan məsələlər bağlı müvafiq təşəbbüslərə Avropa Şurası tərəfindən dəstək verilməsinin vacibliyini qeyd etmişdir.

Daha sonra xanım Komissar tərəfindən görüşdə iştirak edən vəkillərə peşələrinin həyata keçirilməsi ilə bağlı suallar verilmiş, həmçinin vəkillər tərəfindən onları maraqlandıran məsələlər üzrə təkliflərlə çıxış edilmişdir.

Görüşdə Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəsi Fəxrəddin İsmayılov, Avropa Şurasının Bakı Ofisinin rəhbəri Zoltan Hernyes, İnsan Hüquqları üzrə Avropa Komissarının Ofisinin təmsilçiləri də iştirak edirdi.

Sonda qonaqlarla xatirə şəkili çəkilmişdir.

## ABŞ-ın Azərbaycandakı səfiri Vəkillər Kollegiyasını ziyarət etmişdir



ABŞ-nin ölkəmizdəki səfiri cənab Li Litzenberqerin rəhbərlik etdiyi nümayəndə heyəti Vəkillər Kollegiyasının Rəyasət Heyətini ziyarət etmiş, Kollegiyanın rəhbərliyi və bir sıra vəkillərlə görüşmüşdür.

Yüksək səviyyəli qonağı salamlayan Vəkillər Kollegiyasının sədri Anar Bağırov ilk öncə xoşməramlı ziyarətinə görə cənab Litzenberqerə öz təşəkkürünü bildirmişdir, daha sonra ötən dövrdə vəkilliyin inkişaf etdirilməsi üzrə görülmüş işlər, xüsusən vəkillərin sayının artırılması, onların müdafiəsi, peşəkarlığının yüksəldilməsi, Kollegiyanın beynəlxalq əlaqələrə verdiyi əhəmiyyət və bu istiqamətdə əməkdaşlıq münasibətlərinin qurulması barədə fikirlərini bölüşmüşdür. Eyni zamanda görüşdə “Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən qəbul edilmiş 22.02.2018-ci il tarixli Sərəncam, habelə “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” 03.04.2019-cu il tarixli Fərman və həmin sənədlərin icrası çərçivəsində Kollegiya tərəfindən görülmüş işlər barəsində məlumat da vermişdir.

Öz çıxışında Anar Bağırov ABŞ səfirliyinin rəsmisinin Kollegiyanı ziyarət etməsini ölkəmizdə vəkilliyin nüfuzunun artırılmasına verilmiş töhfə olaraq qiymətləndirmişdir.



Görüşdə həmçinin gələcəkdə vəkil peşəsinin inkişaf perspektivləri, vəkilliyə qəbul prosesinin daha da sadələşdirilməsi və s. əhəmiyyət kəsb edən məsələlər barədə qarşılıqlı fikir mübadiləsi aparılmışdır.

Daha sonra, cənab Səfir yüksək qonaqpərvəliyə və səmimi fikir mübadiləsinə görə Vəkillər Kollegiyasının rəhbərliyinə öz təşəkkürünü bildirmiş, Kollegiya ilə əməkdaşlıqda, ölkəmizdə vəkillik peşəsinin inkişafında, ABŞ vəkillərinin öz Azərbaycan həmkarları ilə əməkdaşlığında maraqlı olduğunu bildirmiş, həmçinin Səfirlik tərəfindən hazırda dəstək verilən hüquqi təşəbbüslər barədə fikirlərini səsləndirmişdir.

Sonda qonaqlarla xatirə fotosu çəkilmişdir.

## Azərbaycan vəkilliyinin 100 illiyində sosial aksiya keçirilmişdir



İyul ayının 30-da Azərbaycan vəkilliyinin 100 yaşı tamam olur. Məlum olduğu kimi, 30 iyul 1919-cu il tarixi - Azərbaycan Xalq Cümhuriyyətində Andlı Müvəkkillər Şurasının təşkili və yaradılma günü Azərbaycanda milli vəkilliyin təşəkkül tapma tarixi kimi əlamətdardır.

Xalqımızın tarixi keçmişi ilə səsləşən bu ənənəyə sadiqliyin və duyarlı yanaşmanın nəticəsi kimi, 30 iyul 1919-cu il tarixi - Azərbaycan Xalq Cümhuriyyətində Andlı Müvəkkillər Şurasının təşkili və yaradılma günü Vəkillər Kollegiyasının üzvləri tərəfindən sevinc hissi ilə qarşılanmışdır.

Bu əlamətdar günün qeyd olunması ilə əlaqədar Vəkillər Kollegiyasının qurumları tərəfindən gün ərzində paytaxt və bir sıra digər bölgələrdə olan müxtəlif sosial xidmət müəssisələri, internat və uşaq evləri - Bakı şəhəri 7, 8 saylı və Femida Vəkil Bürosu tərəfindən "Ümid yeri" uşaq evi, Bakı şəhəri 22 və 23 saylı Vəkil Büroları tərəfindən 2 saylı uşaq evi, Xəzər Consulting və Fides Vəkil Büroları tərəfindən Kor uşaqlar internatı, Bakı şəhəri 19 saylı və "Faiq Nağıyev və partnyorları" Vəkil Bürosu tərəfindən 1 saylı internat, Bakı şəhəri 3, 10 saylı və Sumqayıt Regional Vəkil Büroları tərəfindən Mərdəkan müalicəvi pansionat, Bakı şəhəri 3 və 5 saylı Vəkil Büroları tərəfindən 9 saylı internat, Bakı şəhəri 4 və 6 saylı Vəkil Büroları tərəfindən 9 saylı qocalar evi, Abşeron, Xırdalan və Sumqayıt şəhər 1 saylı Vəkil Büroları tərəfindən 7 saylı fiziki və əqli qüsurlu uşaqlar üçün internat evi, Bakı şəhəri 15, 16 və 18 saylı Vəkil Büroları tərəfindən Şaqan 3 saylı fiziki və əqli qüsurlu uşaqlar üçün internat evi, Bakı şəhəri 21 saylı, LCG və "Kəngərli və partyorları" Vəkil Büroları tərəfindən 1 saylı uşaq evi, Bakı şəhəri 25 və 26 saylı Vəkil Büroları tərəfindən 1 saylı körpələr evi, Bakı şəhəri 24 saylı və Kredo Vəkil Bürosu tərəfindən 11 saylı internat, Bakı şəhəri 2 saylı və Mərkəz Vəkil Bürosu tərəfindən 16 saylı internat, Bakı şəhəri 11 və 12 saylı Vəkil Büroları tərəfindən Müharibə və əmək əlilləri üçün pansionat, Bakı şəhəri 13 və 14 saylı Vəkil Büroları tərəfindən Şağan müalicəvi pansionat, Gəncə şəhər 1 saylı Vəkil Bürosu tərəfindən Göygöl 8 saylı ruhi-əsəb əlilləri internat evi, Kermur, Lider və MBM Vəkil Büroları tərəfindən Müharibə Əlilləri üçün Müalicə Pansionatı, Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası tərəfindən Şahbuz qoca və kimsəsizlər üçün pansionat ziyarət edilmiş, müəssisələrdə yaşayan şəxslərə ödənişsiz hüquqi yardım göstərilmiş, onların müraciətləri araşdırılmış və müəssisə sakinlərinə hədiyyə sovqatları paylanılmışdır.

Bundan başqa, bu gün münasibətilə vəkil qurumlarına müraciət edən bütün şəxslərə ödənişsiz hüquqi yardım göstərilməkdədir. Bununla bağlı, hüquqi yardıma ehtiyacı olan şəxslər ölkə ərazisində fəaliyyət göstərən vəkil qurumlarına müraciət edərək ödənişsiz hüquqi yardımdan faydalanmışlar.

Qeyd olunmalıdır ki, gün ərzində Respublikanın 18 sosial müəssisəsi 40-dək vəkil qurumunun vəkilləri tərəfindən ziyarət edilmişdir.

# "Asudə" rubrikası

*Əziz oxucular, sizlərə 2017-ci ildə yaradılmış və artıq bir xeyli izləyicisi olan maraqlı və hüquqi sahədə maarifləndirici "Hüquqi Açıqcalar" seriyasını təqdim edirik. Səhifənin əsas məqsədi insanların hüquq və vəzifələrini hər kəsin anlayacağı sadə və hüquqi terminlərdən mümkün qədər uzaq dildə açıqlamaqdır. Səhifənin yaradıcıları Vəkillər Kollegiyasının üzvü, vəkil Nazlı Əhmədova, dizaynın müəllifləri - Nurlan Məmmədli və Ziya Şivaxanlı, korrektor isə Günel Məmmədzadədir.*

*Ünvan: https://www.facebook.com/legalpostcards/*


















# CONTENTS


**Interviews and opinions**

**41** *"Strong and authoritative legal institution of Independent state"* **Chairman of Azerbaijani Bar Association, Anar Baghirov**

**44** *"Azerbaijani advocacy - 100 years anniversary"* **lawyer Akif Alizadeh**

**From international and local press**

**54** The new phase of judicial and legal reforms

**58** The Presidential Decree serves to raise public confidence in the judiciary

**65** Representatives of the Chinese Law Society visited Azerbaijani Bar Association

**65** The Chairman of the Bar Association participated in 2019 Peterburg Law Forum

**66** The first regional Law Office of the Bar Association was opened in Sumgait

**67** Azerbaijani lawyers can now be admitted to advocacy in the UK's jurisdiction

**68** A conference on"Lawyer's view on judicial legal reforms" was held

**69** Officials visited the legal assistance centre in the Masalli "ASAN" service centre

**70** Chess tournament between lawyers completed

**70** Inauguration ceremony of candidates to lawyer held at Azerbaijan National Academy of Sciences

**71** The management of the Bar Association participated in the international conference

**71** Memorandum of Understanding was signed between the Bar Association and the General directorate for Combating Corruption under the Prosecutor General

**72** Management of Azerbaijani Bar Association participated in the international conference in Poland

**73** Council of Europe Commissioner for Human Rights visited Azerbaijani Bar Association

**74** Ambassador of the USA to Azerbaijan visited the Azerbaijani Bar Association

**75** Social event dedicated to the centennial of the legal profession in Azerbaijan

# Interviews and opinions

**Anar Baghirov**

***Chairman of Azerbaijani Bar Association***



## STRONG AND AUTHORITATIVE LEGAL INSTITUTION OF INDEPENDENT STATE

*"Strong and authoritative advocacy is of great importance"*
*Ilham ALIYEV*

For the organization of professional human rights protection in our country, 2019 is especially significant for the Azerbaijani lawyer. We can confidently say that this year will mark the 100th anniversary of the Azerbaijani lawyer's office, the 20th anniversary of the establishment of the Independent Lawyer Institute, and the 15th anniversary of establishment of the Bar Association's of the Republic of Azerbaijan.

